QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 013 (5733) **22 yanvar** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "20 Yanvar faciəsi xalqımızın qəhrəmanlıq səhifəsidir"

*Azərbaycan Prezidenti İlham Əliyev 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib*

Səh 2



"Azərbaycan dördüncü sənaye inqilabının hədəflərinin həyata keçirilməsində çox fəal iştirak edəcək"



3

"Azərbaycan Prezidenti İlham Əliyev məhkum Mehman Hüseynovun işinin obyektiv və ədalətli araşdırılması ilə bağlı tapşırıq verib"



4

"Milli Şuranın təşkil etdiyi mitinqin insanları düşündürən məsələlərlə heç bir əlaqəsi yoxdur"



4

Mübariz Qurbanlı: "Azərbaycan xalqı bu cür aksiyalara dəstək vermir"



4

Mehman Hüseynov Prezident İlham Əliyevə müraciət ünvanlayıb



5

"Milli Şura Azərbaycanın dəyərlərinə hörmət etmir"



5

14

"Məhsul"da məhsuldarsız mitinq - rəzalət və rüsvayçılıq!



13

Ümumxalq hüzn günündə AXCP gənclərinin keyfi




8

Bir cib diktatorunun manifesti və ya Müsibəti-Əli



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

22 yanvar 2019-cu il

# “20 Yanvar faciəsi xalqımızın qəhrəmanlıq səhifəsidir”

## *Azərbaycan Prezidenti İlham Əliyev 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib*



## Rəsmi xronika

Prezident İlham Əliyev Hacı İsmayılovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan teatr və kino sənətinin inkişafında xidmətlərinə görə Hacı Məcid oğlu İsmayılov “Şöhrət” ordeni ilə təltif edilsin.

***

Prezident İlham Əliyev Meksika Prezidenti Andres Manuel Lopes Obradora başsağlığı verib. Başsağlığında deyilir: “Hörmətli cənab Prezident, İdalqo ştatında boru kəmərində baş vermiş partlayış və yanğın nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Meksika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm”.



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər.***

Qara Yanvar hadisələrindən 29 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 29 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrıacısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən təcavüzkar Ermənistanı açıq-aşkar dəstəkləməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın ovaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.

Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Əslində, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

Azərbaycanın azadlığı uğrunda canından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, əzizləri də hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı hər zaman dövlətimizin başçısının diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilib. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlətimizin başçısı bu istiqamətdə sərəncam və fərmanlar verib. Bundan başqa, əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir.

Yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldilər.

Dövlətimizin başçısı “Əbədi məşəl” abidəsinin önünə əklil qoydu. Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etdilər. Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov və Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak ediblər.

# “Azərbaycan dördüncü sənaye inqilabının hədəflərinin həyata keçirilməsində çox fəal iştirak edəcək”

*Prezident İlham Əliyev Davosda Dünya İqtisadi Forumunun prezidenti ilə görüşüb*







***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfəri başlayıb.***

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlətimizin başçısı yanvarın 21-də Davosda Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə görüşüb.

Görüşdə Azərbaycan Hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında ilk dəfə olaraq əməkdaşlığın təməli qoyuldu. Bu məqsədlə Azərbaycan Prezidenti İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında əməkdaşlıq sazişinin təntənəli mübadiləsi həyata keçirildi.

Söhbət zamanı Dünya İqtisadi Forumunun prezidenti Borge Brende Prezident İlham Əliyevi yenidən Davosda görməkdən məmnunluğunu bildirdi və dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın dördüncü sənaye inqilabına doğru qətiyyətli addımlar atdığını qeyd etdi. Borge Brende son iyirmi ildə Bakının sürətlə tanınmaz dərəcədə dəyişdiyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycan Hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında əməkdaşlıq sazişinin vacibliyini qeyd edərək dedi ki, bu sənəd bizim tərəfdaşlıq ruhumuzu və qarşılıqlı səylərimizi davam etdirməkdə istəkli olduğumuzu nümayiş etdirir. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan dördüncü sənaye inqilabının hədəflərinin həyata keçirilməsində çox fəal iştirak edəcək. Keçən il Azərbaycanda qeyri-neft sektorunda sənaye istehsalının 9,1 faiz artdığını vurğulayan Prezident İlham Əliyev əminliklə bildirdi ki, biz bu vacib layihədə yaxşı tərəfdaşlar olacağıq.

Prezident İlham Əliyev növbəti dəfə Dünya İqtisadi Forumunda iştirakından və Forumla Azərbaycan arasında əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olmasından məmnunluğunu ifadə etdi. Forumu dünyada gedən transformasiya prosesinin yeni təmayülləri və çağırışların müzakirəsi baxımından əhəmiyyətini vurğulayan dövlətimizin başçısı Azərbaycanın öz inkişaf strategiyasını yenilənən beynəlxalq və regional təmayüllər nəzərə alınmaqla qurduğunu bildirdi.

Prezident İlham Əliyev ölkəmizdə aparılan islahatlar, inkişaf prosesləri barədə məlumat verdi, böyük nəqliyyat və infrastruktur layihələrinin, o cümlədən Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri ilə bağlı layihələrin, enerji layihələrinin reallaşdırılmasının həm ölkəmiz, həm də region üçün əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanda biznes mühitinin daha da inkişaf etdirilməsi istiqamətində aparılan islahatlar barədə məlumat verdi.

Borge Brende Azərbaycan ilə Dünya İqtisadi Forumu arasında əməkdaşlıqdan və ölkəmizin bölgədə oynadığı roldan məmnunluğunu ifadə etdi. Bildirdi ki, Azərbaycanın qonşu və region dövlətləri ilə iqtisadi əməkdaşlığının və ölkəmizin güclənən iqtisadiyyatının bölgə ölkələrinin inkişafında əhəmiyyətli rolu var. Dünya İqtisadi Forumu bu rolu qiymətləndirir. Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.




# Prezident Ilham Əliyev Davosda “Rossiya 1” televiziya kanalına müsahibə verib

**Yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda “Rossiya 1” televiziya kanalına müsahibə verib.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlətimizin başçısı dünyada neftin qiymətinin vəziyyəti, beynəlxalq münasibətlər və digər məsələlərlə bağlı sualları cavablandırıb.

# Prezident İlham Əliyev Davosda Çinin CGTN televiziyasına müsahibə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Çinin CGTN (China Global Television Network) televiziya kanalına müsahibə verib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlətimizin başçısı müsahibədə Azərbaycanda enerji sektorunun, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına, ölkəmizin həyata keçirdiyi qlobal enerji və infrastruktur layihələrinə, respublikamızın “Bir kəmər-bir yol” layihəsində iştirakına, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə, Azərbaycan-Çin ikitərəfli münasibətlərinə və digər məsələlərə toxundu. Sonra Prezident İlham Əliyev CGTN televiziya kanalının xatirə kitabına ürək sözlərini yazdı.



## "Azərbaycan Prezidenti İlham Əliyev məhkum Mehman Hüseynovun işinin obyektiv və ədalətli araşdırılması ilə bağlı tapşırıq verib"



Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərov hazırda cəza çəkən Mehman Hüseynovun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciəti ilə bağlı AZƏRTAC-a açıqlama verib.

Fuad Ələsgərov deyib ki, məhkum Mehman Hüseynov 2019-cu il yanvarın 20-də Azərbaycan Respublikasının Prezidentinə müraciət edib. Müraciətdə o, barəsində aparılan istintaqın obyektivliyinin təmin edilməsi və ədalətli qərar qəbul olunması üçün Azərbaycan Respublikası Prezidentinin müdaxilə etməsini xahiş edib.

Bundan öncə, 2019-cu il yanvarın 18-də Mehman Hüseynovun məsələsi ilə əlaqədar bir qrup hüquq müdafiəçisi də Azərbaycan Respublikasının Prezidentinə müraciət ünvanlamışdır. Hüquq müdafiəçiləri baş vermiş insidentlə əlaqədar süni şəkildə ajiotaj yaradıldığını, yalan məlumatların yayıldığını, yanlış ictimai rəy formalaşdırmağa cəhdlər edildiyini qeyd etmiş, Azərbaycan Respublikası Prezidentinin yüksək humanizm prinsipinə daim sadiqliyini xüsusi vurğulayaraq, Mehman Hüseynovun barəsində də mərhəmət göstərilməsini xahiş etmişlər.

Müraciətlər Azərbaycan Respublikası Prezidentinin diqqətinə çatdırılıb və cənab Prezident bu müraciətlərə dərhal reaksiya verib. Möhtərəm Prezident məhkumun gənc olmasını, artıq iki ilə yaxın cəza çəkdiyini, ailə vəziyyətini və atasının yaşlı olduğunu nəzərə alaraq, Mehman Hüseynovun işində humanizm prinsipinin önə çəkilməsini, araşdırmanın obyektiv və ədalətli olması üçün qanunla nəzərdə tutulmuş bütün zəruri tədbirlərin görülməsini Azərbaycan Respublikasının baş prokuroruna tövsiyə edib. Eyni zamanda, cənab Prezident hadisənin iştirakçılarını barışığa doğru addımlar atmağa dəvət edib. Mehman Hüseynovla bağlı əvvəllər də humanist yanaşmanın şahidi olmuşuq. Belə ki, o, cəza çəkdiyi müddətdə ağır xəstəlikdən sonra vəfat etmiş anasının yas mərasimində iştirak etməyə buraxılmışdır.

Azərbaycan Respublikasının Prezidenti hər zaman bu cür müraciətlərə həssaslıqla yanaşır, öz fəaliyyətində daim ədalət və humanizm prinsiplərini rəhbər tutur və bütün dövlət məmurlarından da eyni yanaşmanı tələb edir. Həmin siyasətin təzahürü kimi onlarla amnistiya aktlarını, əfv haqqında sərəncamları göstərmək olar. Cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı cənab Prezidentin son təşəbbüsləri minlərlə məhkumun azadlığa çıxmasına zəmin yaratmışdır.

## "Azərbaycan gəncliyi İlham Əliyevlədir"



"Ümumiyyətlə, bütün Azərbaycan vətəndaşlarına bərabər hüquq verilib. Bu gün artıq müxalifətin ən böyük taktikası, arzusu ondan ibarətdir ki, ajiotaj yaratmaqla nəsə əldə etməkdir. Çünki xalq tərəfindən bunlara dəstək olmur. Onlara ancaq havadarları dəstək olur". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, hakim Partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov deyib.

YAP GB sədrinin sözlərinə görə, hər hansı bir aksiyanı, piketi və yaxud tədbiri həyata keçirəndə bunun arxasında birinci növbədə xalq kütləsi gəlməlidir və onları dəstəkləyən qüvvələr olmalıdır: "Amma onlar artıq bunu edə bilməyəcək qədər zəifləyiblər. Onların yanlarında yalnız 5-10 nəfər insan qalıb. Bunun üçün də qanunu pozmaqla məşğul olurlar və diqqəti özlərinə cəlb etməyə çalışırlar. Onların yanlarında olan gənclərin isə sosial şəbəkələrdə heç "facebook" səhifələri real deyil. Bunu hamı bilir. Mən bunu edən gənclərimizə üzümü tutub deyirəm ki, siz bunların arxasınca getməyin. Onlar cəmiyyət tərəfindən qəbul edilməyən anti-milli ünsürlərdirlər. Əgər bunlar özünə güvənməyib xaricdən dəstək alırsa, millət onları heç zaman dəstəkləməyəcək. Bu gün xalq bizi, cənab Prezidentimizi dəstəkləyir. Xalq iqtidarla birlikdədir. Müxalif gənclərimizə üz tutub deyirəm ki, bu işlərdən əl çəksinlər və yalnız öz dövlətlərini sevsinlər. Bizim qapılarımız onların üzünə açıqdır. Qoy gəlib siyasi fəaliyyətlərini burada davam etdirsinlər".

## "Məqsəd ölkəmizin nüfuzuna zərbə vurmaqdır"



"Avropa Parlamentində Azərbaycanla bağlı dinləmələr və qəbul olunmuş "qətnamə" qeyri-obyektiv və qərəzlidir. Bu tədbiri təşkil edənlər və onların arxasında dayananların anti-Azərbaycan qüvvələr olduğu da açıq şəkildə görünməkdədir". Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, millət vəkili Sevinc Fətəliyeva deyib.

Bəzi qüvvələrin Azərbaycanın beynəlxalq nüfuzuna kölgə salmağa çalışdığını deyən komitənin sədr müavini vurğulayıb ki, sənədin müəlliflərindən biri olan Avropa Parlamentinin üzvü, eyni zamanda, Avronest Parlament Assambleyasının həmsədri Rebekka Harmsın məsələ ilə bağlı guya azərbaycanlı həmkarları ilə təmaslar qurmağa çalışması ilə bağlı yalan iddialar buna sübutdur: "Bütövlükdə, həmin dinləmələrə diqqət yetirdikdə bəlli olur ki, bu, erməni lobbisi və anti-Azərbaycan dairələrin sinxron fəaliyyətinin məhsuludur. Bu cür təxribatçı cəhdlər və manipulyasiya xarakterli səylər dəfələrlə qeydə alınıb və uğursuzluğa düçar olub. Məqsəd ölkəmizin nüfuzuna zərbə vurmaq, eləcə də Avropa İttifaqı ilə genişlənən münasibətlərə xələl gətirməkdir". Azərbaycan müstəqil siyasət həyata keçirdiyini dilə gətirən S.Fətəliyeva qeyd edib ki, əgər həmin dairələr saxta iddialarla müstəqil siyasətimizə təsir edəcəklərini düşünürlərsə, tamamilə yanılırlar: "Əgər həqiqətən də Avropa Parlamentinin dinləmələrdə iştirak edən üzvləri üçün insan haqları amili önəmlidirsə, niyə onlar Azərbaycandakı qaçqın və məcburi köçkünlərin problemlərinə diqqət yetirmirlər. Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində bir milyondan çox insan doğma torpaqlarından didərgin düşüb. Avropa Parlamentində insan hüquqlarından danışanlar bu insanların haqlarının bərpa olunması istiqamətində addım atmalıdırlar".

## "Milli Şuranın təşkil etdiyi mitinqin insanları düşündürən məsələlərlə heç bir əlaqəsi yoxdur"



"Azərbaycanın ənənəvi müxalifəti cəmiyyətin siyasi konstruksiyasında özünə yer tapa bilməyib. Müxalifət demək olar ki, unudulub. Səbəbləri barədə dəfələrlə danışmışıq. Ən əsas səbəb müxalifətin sosial dayaqlarını itirməsidir". Bu fikirləri YAP-ın Sədr müavini - icra katibi Əli Əhmədov müxbirin "Yeni Azərbaycan Partiyası Milli Şuranın 19 yanvar mitinqini necə qiymətləndirir" sualını cavablandırarkən səsləndirib.

"Milli Şuranın 19 yanvar tarixində keçirilən mitinqinin əvvəllər olduğu kimi, yenə də uğursuz keçdiyini diqqətə çatdıran Əli Əhmədov bildirmişdir. "Mənə belə gəlir ki, bu mitinqin əsas mənası müxalifətin öz varlığını göstərmək cəhdi ilə bağlıdır. Müxalifət öz varlığını göstərmək üçün mitinq keçirirsə, deməli əslində bir siyasi qüvvə kimi mövcud deyil. Digər tərəfdən, Milli Şura insanlardan, xalqın istək və arzularından ayrı düşüb. Onun təşkil etdiyi mitinqin insanları düşündürən məsələlərlə heç bir əlaqəsi yoxdur. Bu gün Azərbaycan cəmiyyəti üçün aktual olan məsələlərdən müxalifət çox uzaqdır. Ona görə də onların mitinqi xalq üçün aktual deyil. İnanın ki, əhalinin heç bir faizi də bu gün müxalifətin mitinqə çıxmasından xəbəri yoxdur. Cəmiyyət müxalifətə və onun kiçik, əhəmiyyətsiz mitinqlərinə çoxdan biganədir."

YAP Sədrinin müavini "İqtidar müxalifətin mitinq fəallığının artmasından ehtiyatlanırmı" sualına cavabında isə qeyd etmişdir ki, iqtidarın xalq tərəfindən dəstəyi kifayət qədər yüksək və qətidir: "Azərbaycanda insanlar üçün yaradılmış təhlükəsizlik və sabitlik, inkişaf, gələcəyə nikbinlik, əmin-amanlıq və s. pozitiv məqamlar xalqın bugünkü iqtidara müsbət münasibətin əsasını təşkil edir. Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan köklü surətdə dəyişib, inkişaf edib. Hazırda müsbət dəyişikliklər prosesi davam edir, daha da intensivləşir. Azərbaycanın gələcəyi ilə çox böyük layihələr həyata keçirilir. İnsanların optimizmi də təbii olaraq artır. Belə olan halda kiçik müxalifətin kiçik mitinqləri iqtidara heç bir təhlükə mənbəyi deyildir."

"Sonda onu demək istəyirəm ki, Azərbaycanda son 10-15 il ərzində çox şey müsbətə doğru dəyişib, bir müxalifətdən başqa. Bu günün ənənəvi müxalifəti inert, aktuallığını itirmiş ideyaların daşıyıcısı olan azsaylı marginal qrup olaraq qalmaqdadır. Yeni Azərbaycan Partiyası onu siyasi güc olaraq görmür." - deyə Əli Əhmədov vurğulamışdır.

## Mübariz Qurbanlı: "Azərbaycan xalqı bu cür aksiyalara dəstək vermir"



"Bu gün Azərbaycan sürətlə inkişaf edir, Prezidentimiz Azərbaycanın inkişaf istiqamətlərini dəqiq müəyyən edib". SİA-nın verdiyi məlumata görə, bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini Mübariz Qurbanlı deyib.

O qeyd edib ki, bu gün Azərbaycan xalqının qarşısında mühüm vəzifələr durur və ən mühüm məsələ Ermənistan tərəfindən işğal olunmuş əraziləri geri qaytarmaqdır, ikinci məsələ xalqın rifahını daha da yüksəltmək, Azərbaycanın inkişaf etmiş ölkələr sırasında yerini daha da möhkəmləndirmək, daha güclü Azərbaycan quruculuğuna nail olmaqdır: "Prezidentimiz bu hədəflər üçün siyasi istiqamətlər müəyyən edib, bütün dövlətlər bu istiqamətdə fəaliyyət göstərir və inkişaf edir. Belə olan şəraitdə ölkədə bəzi qruplar həm xaricdən olan təbliğatın və digər təsirlərin nəticəsində, həm də özlərinin mənfur niyyətlərini həyata keçirmək naminə qarşıdurma yaratmaq və sairə cəhdlər edirlər. Bu cəhdlər zamanı da mitinqlərdən istifadə edirlər".

M.Qurbanlı bildirib ki, Azərbaycan demokratik dövlətdir, bu gün mitinqlərlə nəyisə xalqa çatdırmaq, nəyəsə nail olmaq zaman arxada qalıb: "Kiminsə, hansısa siyasi qrupun sözü varsa, bunu cəmiyyətə çatdırmaqda heç bir problem yoxdur. Məsələn, "Məhsul" stadionunda keçirilən mitinq bir daha göstərdi ki, Azərbaycan xalqı bu cür aksiyalara dəstək vermir. Burada toplaşan eyni adamlardır, eyni fikirlər səsləndirirlər, eyni sözlər deyirlər və onların söylədikləri bayat fikirlərə xalq heç reaksiya da vermir, verməyəcək də, çünki onların dediklərində hər hansı bir yenilik yoxdur".

## Səməd Seyidov yenidən AŞPA-nın vitse-perzidenti seçilib



Azərbaycanın Avropa Şurasl Parlament Assambleyasında (AŞPA) nümayəndə heyətinin tərkibi növbəti il üçün təsdiqlənib. SİA-nın verdiyi məlumata görə, Səməd Seyidov AŞPA-nın yenidən vitse-perzidenti seçilib.

Azərbaycan nümayəndə heyətinin üzvləri deputatlar Rafael Hüseynov, Sabir Hacıyev, Qənirə Paşayeva, Ülviyyə Ağayeva, Sevinc Fətəliyeva, Elşad Həsənov, Fazil Mustafa, Asim Mollazadə, Çingiz Qənizadə, Sahibə Qafarova və Naqif Həmzəyevdir. Qeyd edək ki, dünən AŞPA-nın qış sessiyası başlayıb və yanvarın 25-ə kimi davam edəcək.

## Bu vaxtadək 4200 qadın sahibkara 104 milyon manat güzəştli kredit verilib




İndiyədək Sahibkarlığın İnkişafı Fondu tərəfindən 4 min 200 qadın sahibkara 104 milyon manat güzəştli kredit verilib. AZƏRTAC xəbər verir ki, bu barədə Sahibkarlığın İnkişafı Fondunun idarə heyətinin sədri vəzifəsini icra edən Arif Vəlimmədov deyib.

# Mehman Hüseynov Prezident İlham Əliyevə müraciət ünvanlayıb



Həbsdə olan bloqqer Mehman Hüseynov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət ünvanlayıb. SİA-nın xəbərinə görə, yanvarın 20-də imzalanmış müraciətdə deyilir:

**"Hörmətli cənab Prezident,**

Mən - Mehman Hüseynov 2 ilə yaxındır cəza çəkirəm. Bu müddət ərzində cəzaçəkmə müəssəsinin əməkdaşları ilə aramda hər hansı xoşagəlməz hadisə olmayıb. Həmişə çalışmışam rejimə əməl edim. Lakin keçən il 26 dekabrda cəza çəkdiyim müəssisədə insident baş verdi və bu hadisəyə görə mən günahlandırılmışam. Hadisə barədə geniş yazıb vaxtınızı almaq istəməzdim. Sadəcə, onu demək istəyirəm ki, baş vermiş hadisədə mənim günahım yoxdur. Mən həbsxana əməkdaşını vurmamışam.

2 mart tarixində mənim cəzamın vaxtı bitir. Mən bu tarixi çox gözləmişəm. Təzədən məhkum olunmaq, yeni cəza almaq istəmirəm. Mən əvvəllər də dediyim kimi kiminsə hərəkətinə görə məsuliyyət daşımıram. Amma kiminsə mənim vəziyyətimdən özü üçün istifadə etməsini də istəmirəm. Məni yalnız bir şey maraqlandırır. Azadlığa çıxmaq. Mənə yeni cəza verilsə, bu, tək qalmış 70 yaşlı atam üçün də böyük zərbə olacaq. Onun üçün məni bu vəziyyətdə görmək, tez-tez gəlib mənə baş çəkmək çox çətindir.

Sizdən xahiş edirəm araşdırmanın düzgün aparılmasına göstəriş verəsiniz. Sizin müdaxiləniz olsa, əminəm ki, mənim işim üzrə qərar ədalətli olacaq".

# "Milli Şura Azərbaycanın dəyərlərinə hörmət etmir"



"Azərbaycan müxalifətinin yanvarın 19-da mitinq keçirməsinin səbəbini son günlər ermənipərəst mərkəzlərin Azərbaycan ətrafında siyasi şou kampaniyası başlatması ilə əlaqələndirə bilərik. Çünki Mehman Hüseynov məsələsi ətrafında qurulan siyasi kampaniya eyni mərkəzdən komanda almış kimi bütün "5-ci kalon"un nümayəndələrini hərəkətə gətirdi. Lakin qısa müddət ərzində bu kampaniyanın əsassız olduğu isbatlandı. Yəni M.Hüseynov məsələsi ilə bağlı məlum oldu ki, burada hüquqa zidd heç bir hadisə baş verməyib". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, avropalı diplomatlar təcridxanaya getdilər və bəlli oldu ki, doğrudan da heç bir qanun pozuntusu yoxdur: "Buna rəğmən Azərbaycana qarşı təşkil olunmuş bu kampaniya səngimir. Çünki anti-Azərbaycan mərkəzlər bu tapşırıqları davam etdirirlər. Düşünürəm ki, yanvarın 19-da təşkil olunan mitinq də bu kampaniyanın tərkib hissəsi idi. Mitinq cəmiyyətin siyasi sifarişi olmadığı üçün də 10-a yaxın, siyasi partiyanın birgə təşkil etməsinə baxmayaraq yenə uğursuz oldu. İctimai fəal fərdlər belə aksiyanı dəstəkləmədilər çünki bu addım süni şəkildə gündəmi dəyişməyə hesablanmış bir addım idi. Azərbaycan ictimaiyyətinin sosial sifarişi və tələblərindən irəli gələn mitinq deyildi".

H.Babaoğlu bildirib ki, mitinq uğursuzluğunu ört-basdır etmək üçün Milli Şura adlandırılan qurumun üzvləri Azərbaycan xalqı üçün çox dəyərli bir gün olan 20 Yanvar şəhidlərinin anım günündə, Azərbaycan xalqının and yeri və müqəddəs şəhidlərimizin uyuduğu məkanda yeni bir siyasi təxribata əl atdılar: "Bu onu göstərir ki, özünü Milli Şura adlandıran bu qurum ilk növbədə Azərbaycanın dəyərlərinə hörmət etmir. İkincisi, siyasi əxlaq baxımından kasaddırlar. Üçüncüsü, Azərbaycanın ən müqəddəs dəyərlərini də siyasi spekuliyasiya predimetinə çevirməyə hazırdılar. Çünki onlara tapşırıq bu şəkildə gəlib. Azərbaycanda mənəvi deqradasiya aparmağa çalışırlar. Azərbaycanda siyasi şantaj və istismarla məşğul olmaq istəyirlər.

Bunun müqabilində isə anti-Azərbaycançı mərkəzlərdən pul almaq niyyəti güdürlər. Milli Şura üzvlərinin fəaliyyəti əslində bundan ibarətdir. Ona görə düşünürəm ki, müasir texniki vasitələrə sosial şəbəkələrdə canlı yayımlar etməklə, bu məsələni sosial mediada şişirtməklə əslində anti-Azərbaycançı mərkəzlərə onların sifarişlərini yerinə yetirilmələri ilə bağlı hesabatlar verirdilər. Azərbaycan ictimaiyyəti isə bu halı çox mənfi qarşıladı. Azərbaycan xalqı heç zaman imkan verməyib ki, hansısa məkirli qüvvələr onun ictimai rəyi ilə manipuliyasiya etsin. Hesab edirəm ki, 19 yanvar mitinqi və bunun davamı olaraq 20 Yanvarda təşkil olunan süni ajiotaj bir daha Milli Şura adlandırılan qurumun özünü ifşası ilə nəticələnmiş oldu".

*Ceyhun Rasimoğlu*

# General Məhəmməd Baqeri: İran hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib

***İran hər zaman Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəkləyib və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll olunmasının tərəfdarıdır. İran işğal edilmiş ərazilərin tezliklə azad edilməsini və qaçqınların öz doğma torpaqlarına qayıtmasını istəyir.***



AZƏRTAC xəbər verir ki, bu sözləri İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Məhəmməd Baqeri Azərbaycana səfərinin yekunları haqqında yerli mətbuata verdiyi açıqlamada deyib. General bildirib ki, Xəzəryanı dövlətlərin razılaşmasına əsasən Xəzər dənizində birgə hərbi təlimlər keçiriləcək. İran regionda sülhün və sabitliyin davamlı olmasında, bütün qonşularının, o cümlədən Azərbaycanda hökm sürən sabitliyin davamlı olmasında maraqlıdır.

Bakıda keçirdiyi səmərəli görüşlər haqqında məlumat verən M.Baqeri regional təhlükəsizlik, hərbi sahədə əməkdaşlıq, terrorçuluğa qarşı birgə mübarizə məsələlərinin müzakirə edildiyini bildirib. General səfərinin uğurlu olduğunu diqqətə çatdırıb və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin davam etdiriləcəyini deyib.

# UNEC və "SƏS" Media Qrupunun birgə tədbiri keçirilib




Dünən Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "SƏS" Media Qrupunun birgə təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 29-cu ildönümünə həsr olunmuş tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə UNEC-in rektoru, professor Ədalət Muradov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, "SƏS" Media Qrupunun rəhbəri Bəhruz Quliyev, ziyalılar, şəhid ailələrinin üzvləri, tələbələr və KİV iştirak edib.





Əvvəlcə tədbir iştirakçıları UNEC-in şəhid məzun və tələbələrinin xatirəsinə ucaldılan Memorial-Xatirə Kompleksini ziyarət ediblər. Tədbir UNEC-in akt zalında Vətənin azadlığı uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi başlayıb. Öncə SƏS TV-nin 20 Yanvar faciəsinin 29-cu ildönümü münasibətilə hazırladığı film nümayiş olunub.

UNEC-in rektoru, professor Ədalət Muradov 20 Yanvarın xalqımızın tarixinə sınaq, qəhrəmanlıq və inam günü kimi yazıldığını bildirib. Qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev öz həyatını təhlükə qarşısında qoyaraq, 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, Qorbaçov hakimiyyətinin törətdiyi cinayəti ifşa edib və kəskin etirazını bildirib. Ulu Öndər bəyanatında xalqımıza qarşı törədilən qanlı cinayətin məsuliyyətinin o dövrkü SSRİ və Azərbaycan rəhbərlərinin üzərinə düşdüyünü bildirib və bütün azərbaycanlıları həmrəyliyə çağırıb. Az sonra Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 21 noyabr 1990-cı ildə yanvar hadisələrinə ilk siyasi qiyməti verib.

Universitetin qəhrəman tələbələri çoxdur deyən rektor bildirib ki, bu sırada öndə UNEC-in şəhidlik zirvəsinə ucalan tələbə və məzunlarının adı gəlir.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov isə milli birlik və vətənpərvərliyin simvoluna çevrilmiş 20 Yanvar faciəsi və xalqımızın öz süverenliyi uğrunda apardığı mübarizənin şərəfli tarixi haqqında danışıb. O, 20 Yanvar hadisələrini Azərbaycan xalqının tarixində şanlı səhifə adlandırıb. İcraçı direktor qeyd edib ki, 1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin gecə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Nəsillər dəyişəcək, lakin Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaqdır".

"SƏS" Media Qrupunun rəhbəri Bəhruz Quliyev 20 Yanvar faciəsinə qədər respublikada hökm sürən ictimai-siyasi proseslərə nəzər yetirib, xalqın müstəqillik uğrunda apardığı mübarizə əzmindən danışıb: "SSRİ Konstitusiyasında xalqların təhlükəsizliyinin təmin olunması prinsipi mövcud idi. Ancaq Moskva bu prinsipi ayaq altına ataraq, o vaxtkı SSRİ respublikalarından biri olan Azərbaycanda kütləvi qətliam həyata keçirdi. 1990-cı ilin 20 yanvarında onlarla azərbaycanlı öldürüldü, yüzlərlə insan isə bu və ya digər formada sağlamlığını itirdi. Bununla Moskva Azərbaycan xalqının mübarizə əzmini qırmağa ümid etmişdi. Ancaq o zaman dünyanın ən mübariz xalqı adını almış millətimiz milli-azadlıq uğrunda mübarizəsini davam etdirdi".

B.Quliyev 20 Yanvar faciəsinin baş verməsində o vaxtkı milli-azadlıq hərəkatının önündə gedən şəxslərlə yanaşı, Azərbaycan rəhbərlərinin də günahı olduğunu qeyd edib. Bildirib ki, digər sovet respublikalarında olduğu kimi, müstəqillik mübarizəsini qansız-qadasız həyata keçirmək olardı.

"SƏS" Media Qrupunun rəhbəri 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymətin Ulu öndərimiz Heydər Əliyev tərəfindən verildiyini də bildirib: "1990-cı il yanvarın 21-də Moskvadakı Azərbaycan nümayəndəliyinə gələn Ulu öndərimiz Heydər Əliyev Bakıda 20 Yanvar faciəsinin törədilməsinə görə, bilavasitə, SSRİ-nin rəhbəri Qorbaçovun günahkar olduğunu bildirib. Heydər Əliyev Bakıda baş verən qanlı olaylar barədə dünya ictimaiyyətini məlumatlandırdı. Bununla da Azərbaycanda mövcud olan informasiya blokadası Ulu öndərimizin qətiyyəti sayəsində aradan qaldırıldı".

Sonda tədbirdə iştirak edən şəhid ailələri onların keçdiyi həyat yolundan danışıb, xatirələrini bölüşüblər. 20 Yanvar hadisələrini Azərbaycan xalqının qanla yazılan şərəfli tarix olduğunu bildirərək, dövlətin onlara göstərdiyi qayğı və diqqəti yüksək qiymətləndiriblər. Daha sonra Universitetdə 20 Yanvar şəhidlərinin xatirəsinə ehsan süfrəsi açılıb.

## “Radikal müxalifət şeytanla da əməkdaşlığa hazırdır”



“Əvvəlcədən də gözlənildiyi kimi, “Milli Şura”nın mitinqi növbəti uğursuzluqla nəticəsini tapdı və bu reallıq artıq uzun illərdir ki, Əli Kərimlini müşayiət etməkdədir”. Sözügedən fikirləri “Səs” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev “Məhsul” stadionunda “Milli Şura”nın keçirdiyi mitinqini və onun nəticələrini şərh edərkən deyib.

Baş redaktorun sözlərinə görə, sağlam düşüncəli ictimai rəy ümumiyyətlə, bu qaragüruhçuların sözlərinə, fikirlərinə əhəmiyyət vermir, çünki onların məqsədləri heç də Azərbaycanın dövlətçilik məsələlərinə doğru yönəlməyib: “Biz, bu mitinqdə çıxış edən qaragüruhçu “liderlərin” bir neçə gün öncə Avropa Parlamentinin çıxardığı saxta və əhəmiyyətsiz “qətnaməsindən” doğan kirli məqsədlərinin şahidləri olduq. Corc Sorosun və onun Rebbeka Harms kimi əlaltılarının buyruq qullarına çevrilən bu siyasətbazlar guya “aclıq aksiyası” keçirənlərdən, xüsusilə Mehman Hüseynov sarıdan “narahat” olduqlarını dilə gətirdilər. Lakin hər kəs əmindir ki, nə Əli Kərimlini, nə də digərlərini onların heç biri maraqlandırmır. Onları maraqlandıran saxta aclıq aksiyalarına görə ciblərinə axacaqları qrantlar və s. maddi vəsaitlərdir. Ümumiyyətlə, uğursuz mitinq barədə bir çox mülahizələr irəli sürmək olar və ən əsası, bu adamlar öz siyasi aksiyalarında bir dəfə də olsun ki, qaçqınlarımız, işğal olunmuş torpaqlarımız barədə etiraz səslərini ucaltmayıblar. Məhz bu fakt, başda “Milli Şura” və onun yetkililəri olmaqla, bütövlükdə dağıdıcı müxalifətin aşkar simasızlığını ortaya qoymuş olur”.

Bəhruz Quliyev həmçinin qeyd edib ki, artıq işlərini-güclərini itirmək istəməyən insanlar da Əli Kərimlinin, Cəmil Həsənlinin çağırışlarından, boş-boş vədlərindən beziblər. “Əbəs deyil ki, “Milli Şura”nın mitinqinə qatılmayan insanlar bu və ya digər şəkildə müxalifət “liderlərinə” qarşı antipatiyalarını sərgiləyirlər”, deyən siyasi ekspert əlavə edib ki, artıq cəmiyyət bütün mənalarda dövlətçiliyin yanında olmağın vacibliyini dərk edir: “Diqqət yetirsək görərik ki, vaxtilə radikal dindarlardan öz məqsədləri üçün istifadə edən Əli Kərimli və havadarları indi də cinsi azlıq nümayəndələrindən faydalanmağa çalışırlar. Əbəs deyil ki, Avropa Parlamentinin saxta və qərəzli “qətnaməsində” bu məsələyə də toxunulub və AXCP sədri dərhal həmin məsələni öz maraqları üçün istifadə etməyə çalışır. Bəlkə də o bunu açıq şəkildə etiraf etməyə də bilər, amma fakt budur ki, AP-nin saxtakarlığına dəstək verilirsə, deməli, həmin “qətnamədə” irəli sürülən “müddəalar” da “liderlər” tərəfindən qəbul edilir. Ümumiyyətlə, nə mənəvi, nə əxlaqi, nə də digər meyarlara sığmayan bu kimi halların məhz Əli Kərimli, eləcə də “Milli Şura”nın digər yetkililəri tərəfindən dəstəklənməsindən təəccüblənməyə də dəyməz. Belə ki, bu anti-milli qüvvələr şeytanla da əməkdaşlığa hazırdır, təki, imicimiz körlənsin. Bu, onların aşkar sifətlərdirir”.

Bəhruz Quliyev sonda vurğulayıb ki, bu gün Azərbaycan xalqı və dövləti islahatlarla, inkişaf və tərəqqi ilə ölkənin yüksəlməsi istiqamətində vahid şəkildə birləşib və bu vəhdəti, bu birliyi heç bir xəyanətkar, satqın, anti-dövlətçi qüvvələr pozmaq iqtidarında, gücündə deyil: “Çox yəqin ki, uğursuz mitinq Əli Kərimliyə və onun yandaşlarına növbəti məğlubiyyət dərsini verdi. Lakin ardıcıl, rüsvayçı məğlubiyyətlərdən nəticə çıxarmamaları onları daha dərin, dibi görünməyən uçuruma doğru yuvarladır”.

## “Bütün aktorlar Ermənistanı konstruktiv danışıqlara yönəltməlidir”



“Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla Ermənistan xarici işlər naziri səlahiyyətlərini icra edən Zöhrab Mnatsakanyan arasında keçirilən görüşün həm müsbət, həm də mənfi tərəfləri var. Görüş yeni hökumətin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı planlarını bilmək üçün əhəmiyyətli idi”. Bu fikirləri SİA-ya açıqlamasında siyasi şərhçi Arzu Nağıyev deyib.

Görüşün yekunu ilə bağlı ATƏT-in Minsk qrupu həmsədrlərin yaydığı bəyanata toxunan siyasi şərhçi bildirib ki, hər zaman olduğu kimi vasitəçilərin budəfəki bəyanatları deklorativlikdən kənara çıxmadı: “Hər iki dövlətin vətəndaşlarını sülhə çağırmaq, bir-birilərinə münasibəti bu istiqamətdə qurmaq kimi bəyanatlar bizi qane etmir. Yenə də onlar kimin işğalçı və kimin işğala məruz qaldığını açıq şəkildə bəyan etmirlər”.

A.Nağıyev qeyd edib ki, artıq ATƏT-in Minsk qrupu həmsədrləri, digər dövlətlər, ATƏT-in rəhbərliyi də anlamalıdır ki, bu məsələlərin diplomatik şəkildə həll olunmaması və ya uzadılması hərb yoluna gətirib çıxara bilər. Ona görə də, görüşlərdə qarşıya qoyulmuş məqsəd yerinə yetirilməlidir. Bu baxımdan bütün xarici və daxili aktorlar bu məsələdə Ermənistanı konstruktiv danışıqlara yönəltməlidir”.

Nailə Məhərrəmova

## Bakıda ilk dəfə İtaliya-Azərbaycan Beynəlxalq Film Festivalı keçiriləcək



Yanvarın 25-dən etibarən Bakı ilk dəfə İtaliya-Azərbaycan Beynəlxalq Film Festivalına ev sahibliyi edəcək. SİA-nın məlumatına görə, festival Mədəniyyət Nazirliyi, film istehsalı şirkətləri olan “İmago Group”, “United Cultures” və “Sandro Teti Editore”nin birgə dəstəyi ilə reallaşacaq. Festival İtaliya və Azərbaycan kino sənayesinin keçmişi, bu gününü və gələcəyini təbliğ etmək məqsədi daşıyır.

İtaliyanın Azərbaycandakı Səfirliyi, Nizami Kino Mərkəzi və “The Landmark” tərəfindən dəstəklənən festival hər iki ölkənin bir sıra elmi mərkəzləri ilə əməkdaşlıq çərçivəsində təşkil olunacaq. Yanvarın 30-dək davam edəcək festival çərçivəsində seçilmiş 15 müasir film nümayiş olunacaq. Təqdim olunan nominasiyaların qalibləri xüsusi hazırlanmış “Zoroaster award” ilə mükafatlandırılacaq. “La Piovra” serialında canlandırdığı Tano Cariddi obrazı ilə keçmiş sovet regionunda məşhur olan aktyor və rejissor Remo Girone mükafatlandırma mərasiminə rəhbərlik edəcək, italyan ssenari müəllifi və rejissoru Claudio Rossi Massimi isə festivalın bədii rəhbəri kimi çıxış edəcək.

## “Şəxsi ambisiyalarının quluna çevrilən “milli şuraçı”lar mənəviyyatsızlıqlarını şəhidlərin ruhuna hörmətsizlikləri ilə bir daha göstərdilər”



Demokratik, hüquqi dövlət quruculuğu yolunda inamla addımlayan Azərbaycanın demokratiya təcrübəsi digər dövlətlərə nümunə olduğu halda sapı özümüzdən olan baltaların xaricdən anti-Azərbaycan qüvvələrin dəstəyi ilə ölkəmizin uğurlarına kölgə salmaq cəhdləri mənəviyyatsızlıq, vətəndaşlıq təəssübkeşliyi anlayışının bu ünsürlər üçün nə qədər yad olduğunun göstəricisidir.

Bunu Trend-ə YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə “milli şuraçı”ların 19 yanvar mitinqinə, eyni zamanda, 20 Yanvar şəhidlərinin anım günündə ictimai asayişi və nizam-intizamı pozmaq cəhdlərinə münasibət bildirərkən söyləyib.

O bildirib ki, bütün fəaliyyətləri boyu bu ünsürlərin “möhtəşəm mitinq” sevdası mövcud olduğundan fürsət düşən kimi “xarici dayıları”ndan qrant qoparmaq üçün küçələrə çıxsalar da, sosial bazalarının yoxluğunun şahidinə çevriliblər: “Lakin uğursuzluqlarının səbəbini özlərində axtarmaq əvəzinə, hakimiyyəti tənqid etməklə ictimai fikri çaşdırmağa və başqa istiqamətə yönəltməyə cəhd göstəriblər. Amma bir reallığı unudurlar ki, özləri 90-cı illərin əvvəllərinin nostalji hissləri ilə yaşasalar da, xalq ağı qaradan seçməyi, kimin hansı məqsədlər uğrunda mübarizə apardığını çox yaxşı bilir”.

19 yanvar mitinqinin bu ünsürlərin kimliyinə bir daha işıq saldığını söyləyən V.Rəhimzadə qeyd edib ki, Bakı Şəhər İcra Hakimiyyəti “Milli Şura”nın mitinqlə bağlı müraciətinə müsbət cavab verməklə demokratik cəmiyyətin əsas atributlarından biri kimi vətəndaşların sərbəst toplaşmaq azadlığının yüksək səviyyədə qorunduğunu, hər kəsin öz fikrini azad, sərbəst şəkildə ifadə etmək imkanına malik olduğunu təsdiqlədi: “Məhz bu razılığın verildiyi gündən dağıdıcı ünsürlərin məyusluğu sezilməyə başladı. Çünki daim icazəsiz aksiyaların keçirilməsində maraqlı olan bu ünsürlər çirkin niyyətlərini bu yolla həyata keçirə biləcəklərini düşünürlər: ictimai asayişi pozmaq, qarşıdurma yaratmaq, baş verənlərin cızılan ssenariyə uyğun olaraq çəkilişini aparmaq və beynəlxalq təşkilatlara donoslar ünvanlayıb bunu ölkəmizdə insan hüquqlarının kobud şəkildə pozulması, demokratiyanın boğulması kimi təqdim etmək. Artıq əlikərimlilər bu planlarının da onların köməyinə gəlmədiyinin şahididirlər”.

Ekspert bildirib ki, bu gün küçəyə çıxan “milli şura”çıların mitinq üçün seçdikləri şüara diqqət yetirsək məqsəd və məramlarının nədən ibarət olduğu özünü qabarıq şəkildə büruzə verər: “Qul imicini qazanan əlikərimlilər “siyasi məhbus”lara və Mehman Hüseynova azadlıq” şüarını sözsüz ki, xarici dəstəkçilərinin sifarişlərinə uyğun seçiblər. Azərbaycanda “siyasi məhbus”un olmadığı beynəlxalq səviyyədə etiraf olunur. Ən əsası, demokratik prinsiplərin inkişafı ilə məşğul olan Avropa Şurası bu məsələnin çoxdan qapandığını, Azərbaycanla bu mövzuda problemin olmadığını bəyan edib. Xatırlasaq, qurumun 2013-cü ildə keçirilən qış sessiyasında bəzi anti-Azərbaycan qüvvələr Azərbaycanla bağlı “siyasi məhbus” məsələsinin müzakirəsinin vacibliyini bildirəndə qurum rəhbərliyi bu təklifi qəbul etməmişdi. Bu hadisə Azərbaycan reallıqlarının, ölkəmizin demokratik inkişafının təntənəsi kimi dəyərləndirildi. Baxmayaraq ki, ölkəmizdə bəzi “hüquq müdafiəçiləri” “siyasi məhbus” anlayışından alver kimi bəhrələnərək, müxtəlif tərkibdə siyahılar hazırlayır və beynəlxalq təşkilatlara göndərirlər. “Milli şuraçı”ların mitinqinin vaxtı ilə Avropa Parlamentinin tələsik şəkildə Mehman Hüseynovla bağlı qətnamə qəbul etmə vaxtının üst-üstə düşməsinin özü də bir çox məqamlara aydınlıq gətirir”.

Baş redaktor deyib ki, 19 yanvar mitinqi dağıdıcıların “möhtəşəm mitinq” istəyinin utopiya olaraq qalacağını bir daha nümayiş etdirdi: “Xalq bu ünsürlərə seçkilərdə verdiyi “yox” cavabı ilə onların siyasi meydanının daraldığını, ən əsası, arxivin küncünə sıxışdırıldıqlarını təsdiqlədi. Seçkilərdə məğlub olan dağıdıcıların mitinqlərdə xalqdan dəstək alacaqlarını düşünmələri onların siyasi savadsızlıqlarından irəli gəlir”.

V.Rəhimzadə qeyd edib ki, vətənpərvərlik duyğularından məhrum olan, şəxsi ambisiyalarının quluna çevrilən dağıdıcılar mənəviyyatsızlıqlarını 20 Yanvar şəhidlərinin xatirəsinin anıldığı gündə şəhidlərin ruhuna hörmətsizlikləri ilə bir daha nümayiş etdirdilər:

“Ümumxalq Hüzn Günündə belə bir addımı atmaqla xalqı bir daha onların keçmişini xatırlamaq məcburiyyətində qoydular. Təbii ki, ermənilərlə işbirliyində olub, dövlətin maraqlarını arxa plana keçirən, ən əsası, gəncləri özünün çirkin oyunlarının oyunçusuna çevirərək, ermənilərlə Dağlıq Qarabağ razılaşmasının iştirakçısı kimi çıxış etməyə söv edən əlikərimlilərin şəhidlərin ruhuna bu şəkildə hörmətsizliyi başadüşüləndir. Çünki deyildiyi kimi, torpaq, əgər uğrunda ölən varsa, Vətəndir. Həmçinin torpaq, Vətən uğrunda canlarından keçənlər şəhidlik zirvəsinə ucalırlar. Torpağı, Vətəni pula satan, öz şəxsi ambisiyalarının quluna çevrilən əlikərimlilər bu kimi vətənpərvərlik duyğularından xəbərsiz olduqları halda onlardan şəhidlərin ruhuna hörmət gözləmək sadəlövhlük olar. Bir xatırlatmanı da edək ki, 20 Yanvar şəhidlərinin xatirəsini anmaq adı ilə təxribata əl atan bu ünsürlər əkrəməylislilərin “Daş yuxuları”nın, rüstəmibrahimbəyovların “Qafqaz üçlüyü”nün dəstəkçiləridir. Bu dəstək ermənilərə dəstəkdir”.

Baş redaktor hakimiyyətdə olduqları dövrü unudan əlikərimlilərə bir əsas məqamı xatırladıb ki, gələcəyə keçmişimizlə addımlayırıq: “Keçmişini unudan gələcəyini normal şəkildə qura bilməz. Ermənilərlə işbirliyi təsdiqlənən, keçmiş silahdaşlarının belə arxa çevirdiyi AXCP sədri Əli Kərimli kimilər düşərgədə də nüfuzlarını itirmələrinin fərqində olmasalar da, hər halda bu bir reallıqdır. Vətənpərvərlik insanın daxili duyğularıdır. Bu duyğulardan məhrum olan insanlar mənəviyyatsızdır. Bu xatırlatmanı da dağıdıcı ünsürlərə etmək istərdik ki, itirilmiş mənəviyyatı bərpa etmək mümkün deyil.

## Keçən il Azərbaycanda 38,7 milyon ton neft və 19,2 milyard kubmetr əmtəəlik qaz çıxarılıb

2018-ci ildə Azərbaycanda 38 milyon 758 min ton xam neft (qaz kondensatı daxil olmaqla) və 30 milyard 592,2 milyon kubmetr təbii qaz hasil olunub. Həmin həcmdən 19 milyard 209,9 milyon kubmetr əmtəəlik təbii qaz alınıb. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, il ərzində mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 34,8 milyard manat olmaqla əvvəlki ilə nisbətən 0,2 faiz çoxalıb. Ölkədə neft istehsalı əvvəlki ilin səviyyəsində qalıb, təbii qaz hasilatı isə 5,8 faiz artıb.

# Xunta rejiminin süqutu: erməni rəhbərliyi konstruktiv mövqeyə gələcəkmi?

***Azərbaycan Prezidenti Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında söylədiyi dərin məzmunlu nitqində bir çox məsələlərlə yanaşı, regional miqyasda cərəyan edən prosesləri də təhlil edib. İlham Əliyev həmin kontekstdə Ermənistanda hakimiyyət dəyişikliyinin və bu ölkədə ümumi vəziyyətin pisləşməsinin səbəblərini göstərib.***

İyirmi ildən çox müddət ərzində seçki saxtakarlığı yolu ilə hakimiyyəti mənimsəmiş Sarkisyan rejiminin beynəlxalq qurumlarla cinayət əlaqələrini faktlarla ifşa edib. Ötən müddətdə Ermənistanda seçkilərin demokratik keçdiyindən dəm vuran dairələr indi, nədənsə, keçmiş hakimiyyət komandasının cəmi beş faiz səs toplaması səbəbini izah edə bilmirlər. Bu o deməkdir ki, uzun illər özlərini demokrat hesab edən həmin dairələr, əslində, ikili standart siyasəti aparıb, insanları aldadıblar və bununla Sarkisyan iqtidarının cinayətlərinə ortaqdırlar. Bu faktların fonunda dövlət başçısının nitqinin həmin məqamları üzərində geniş dayanmağa ciddi ehtiyac görürük.

## Kriminal iqtidar: məntiqi son və meydana çıxan suallar

Dövlət başçısı İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında çox maraqlı və aktual problemlərə toxunulub. Ölkə rəhbəri söylədiyi nitqində daxili siyasətdə əldə edilən uğurları təhlil etməklə yanaşı, xarici siyasətdə keçən il müddətində özünü göstərən prosesləri də diqqətə çatdırıb. O cümlədən Ermənistan rəhbərliyinin fəaliyyəti və ona bir sıra xarici qüvvələrin münasibətindəki məqamlarla bağlı olduqca əhəmiyyətli fikirlər ifadə edib. Azərbaycan Prezidenti dərin məzmunlu və tam arqumentli tezisləri ilə nümayiş etdirib ki, daxili, regional və qlobal miqyasda cərəyan edən prosesləri dəqiq müşahidə edir, çox rasional nəticələr çıxarır. Bu baxımdan Ermənistanda 2018-ci ildə özünü göstərən siyasi proseslərə verilən qiymət çox maraqlıdır.

Azərbaycan Prezidenti nitqində Ermənistanda iyirmi il hakimiyyətdə olmuş kriminal xunta rejiminin süqutunun səbəblərini geniş izah edib. Həmin kontekstdə bir sıra beynəlxalq dairələrin və siyasətçilərin qərəzli, ədalətsiz mövqe tutduqlarını sübuta yetirib və hansı nəticələrin əldə edildiyini də ifadə edib.

Ölkə rəhbəri nitqində vurğulayıb: "Bildiyiniz kimi, keçən il Ermənistanda böyük dəyişikliklər baş verdi. İyirmi il hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş kriminal xunta rejimi süqut etdi. Bu da təbiidir və bu, kriminal rejimin məntiqi acı sonudur. Bu məsələdə əlbəttə ki, Ermənistanın işğalçılıq siyasəti də mühüm rol oynayır".

Dövlət başçısı 2018-ci ildə Ermənistanda baş verən hadisələrin sonucunun "böyük dəyişiklik" olduğunu ifadə edib. Onun başlıca məzmunu iyirmi il hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş və mahiyyətcə kriminal xunta olan rejimin ölkəyə rəhbərliyinə son verilməsindən ibarətdir. Həmin rejimin süqutunda başqa faktorlarla yanaşı, Ermənistanın işğalçılıq siyasəti də ciddi rol oynayıb. Bunun özünü konkret olaraq nədə ifadə etdiyini də dövlət başçısı vurğulayıb. İlham Əliyev deyib: "Çünki məhz bu siyasətə görə Ermənistan biz tərəfdən bütün regional layihələrdən təcrid edildi. Bu işğalçılıq siyasətinə görə Ermənistan iqtisadiyyatı demək olar ki, çökdü. Ermənistan çox dərin demoqrafik böhran içindədir və depopulyasiya, yəni, əhalinin azalması prosesi geniş vüsət alıbdır".

Belə çıxır ki, Ermənistanın hazırda dərin siyasi böhran içində olmasının yeganə günahkarı rəsmi İrəvanın qeyri-konstruktiv siyasəti olub. Bunun da iki aspekti mövcuddur. Birinci aspekt ondan ibarətdir ki, S.Sarkisyan rejimi mahiyyətcə kriminal xunta rejimi olduğundan aqressiv mövqe tutub. Elə bu da onu tənəzzülə aparıb. Çünki Azərbaycan Ermənistanı regional layihələrdən təcrid edib. Bunun nəticəsində həm Ermənistan iqtisadiyyatı çöküb, həm də demoqrafik böhran meydana gəlib. İndi də ermənilər həm ölkəni kütləvi şəkildə tərk edirlər, həm də onlarda azalma prosesi gedir.

Digər aspekt isə Ermənistanın indiki hakimiyyətinin ibrət dərsi alması zərurəti ilə bağlıdır. Yəni əgər indikilər də S.Sarkisyan iqtidarı kimi qeyri-konstruktiv mövqe tutacaqlarsa, Ermənistanın süqutu prosesi daha da dərinləşəcək. Və onu kimsə xilas edə bilməyəcək.



İlham Əliyev Azərbaycan rəhbərliyinin hansı səbəblərdən məhz bu mövqeni tutduğunu da konkret ifadə edib. Ölkə rəhbəri nitqində bəyan edib: "Azərbaycan dünyaya sübut etdi ki, onun apardığı siyasət düzgün siyasətdir. Mən bu siyasəti heç vaxt gizlətməmişəm və müxtəlif kürsülərdən açıq bəyan etmişəm ki, biz Ermənistanı təcrid etmək üçün bütün vasitələrdən istifadə edirik və edəcəyik. O vaxta qədər ki, torpaqlarımız azad olunsun. Bu siyasət öz nəticəsini verdi, kriminal rejim çökdü və Ermənistanda yeni vəziyyət yarandı".

## Cinayətə ortaq olanlar: məsuliyyətdən qaçış

Bəli, Azərbaycanın əsas şərti Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından silahlı qüvvələrini çəkməsindən ibarətdir. Rəsmi İrəvan bunu etmir. Əksinə, öz aqressiv ritorikasında qalmaqda davam edir. Üstəlik, bunu 20 il müddətində qanunsuz rejim edib. Sual olunur: necə olub ki, Ermənistana hakimiyyəti qanunsuz yolla zəbt etmiş komanda rəhbərlik edib və bununla bağlı beynəlxalq təşkilatlar heç bir tədbir görməyiblər? Necə olur ki, müsəlman ölkələrində insan haqlarının pozulması hallarını iynənin gözündə axtaran, bu ölkələrdəki seçkilərdə "qayda pozuntuları" tapan, seçki saxtakarlığından dəm vuran dairələr iyirmi il ərzində Ermənistanda qeyri-legitim hakimiyyətin mövcudluğunu görməyib?

İlham Əliyev məsələnin bu aspektini lakonik şəkildə diqqətlərə çatdırır. Nitqində Prezident ifadə edir: "Biz dəfələrlə demişdik ki, Ermənistanda iyirmi il ərzində kriminal, qaniçən xunta rejimi hökm sürür. Ancaq əfsuslar olsun ki, bəzi beynəlxalq təşkilatlar buna göz yumurlar. İndi sual olunur, necə ola bilər ki, son illərdə Ermənistanda böyük miqyasda saxtakarlıqla keçirilmiş prezident və parlament seçkilərinə beynəlxalq təşkilatlar müsbət rəy verirlər. Axı, son parlament seçkiləri göstərdi ki, hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş dəstə beş faiz də səs yığa bilməyib. Bunu hər kəs etiraf edir. Ancaq əvvəlki illərdə özlərinə əlli faizdən çox səs yazdıran kriminal rejimin fəaliyyəti niyə qınaq obyektinə çevrilməmişdir?!".

Həqiqətən, bu, nə ziddiyyətli haldır? Beynəlxalq təşkilatlar üçün üz qaralığıdır. İllərdir ki, onlar Ermənistanda seçkinin demokratik keçdiyindən dəm vurur, insan haqlarının qorunmasında onu Cənubi Qafqazın lideri kimi təqdim etməyə çalışırdılar. Hətta bəziləri Ermənistanı regionun ən azad ölkəsi hesab edirdi. Və qəfil bütün bunların yalan, aldatma, süni qiymətləndirmə olduğu üzə çıxır. Yenə həmin təşkilatlar N.Paşinyanın küçəyə çıxması ilə bəyan edirlər ki, Ermənistanda seçkilərdə kobudluq olub, insanlar həlak olublar, hakimiyyət orqanları xüsusi cəza əməliyyatları keçirib. Bu səbəblərdən N.Paşinyanı dəstəkləyiblər.

Digər tərəfdən, S.Sarkisyan hakimiyyətini demokratik hesab edən bu dairələr son seçkidə həmin siyasi qanadın cəmi beş faiz səs toplamasını necə izah edə bilərlər? Heç cür izah edə bilməzlər. Əksinə, onların qərəzli, saxta və ikili standartlara uyğun siyasət apardıqları bir daha aydın olur. Bütün bunların fonunda Prezident İlham Əliyev haqlı olaraq sual edir: "Avropa Şurası, Avropa Parlamenti və demokratiyadan, ədalətdən dəm vuran digər beynəlxalq təşkilatlar o biabırçı mənzərəyə niyə göz yumurdular?! Məgər onlar bilmirdilər ki, Ermənistanda bütün seçkilər saxtalaşdırılıb? Bilmirdilər ki, erməni xalqı kriminal rejimə nifrət edir? Çox yaxşı bilirdilər, amma göz yumurdular. Nəyə görə...?".

İlham Əliyev bu sualların cavabını da deyib: "İkili standartlara görə. Çox güman ki, burada hansısa təmənna ilə bağlı başqa məsələlər olub. Heç kimə sirr deyil ki, Ermənistan beynəlxalq arenada konyak diplomatiyasını işə salıb və bir çox siyasətçiləri satın alıb. Əvvəlki illərdə Ermənistanın xarici siyasətində rüşvət amili birinci yerdə idi".

Belə çıxır ki, ermənilərlə əlbir olan, onlardan rüşvət alan beynəlxalq təşkilatlar, bir sıra rəsmi şəxslər, siyasətçilər və başqaları uzun illər Ermənistan rəhbərliyinin cinayət əməllərinə ortaq olublar. Bu işlərinə görə həmin dairələr məsuliyyətə cəlb olunmalıdırlar: "Bizim tələbimiz bundan ibarətdir. Əgər bu, olmasa, demək heç nə dəyişilmir. Əgər bu, olmasa, onda bu gün bəzi beynəlxalq təşkilatlar tərəfindən səslənən ədalət, insan haqları haqqında cəfəng bəyanatlar elə cəfəng bəyanatlar kimi qalacaq. Sarkisyan rejiminə, onun əməllərinə dəstək verən, göz yuman beynəlxalq təşkilatlar əgər öz günahını yumaq istəyirlərsə, qoy, etiraf etsinlər ki, onlar iyirmi il ərzində cinayətkarlarla əlbir olublar və beləliklə, bu cinayətlərdə onların da əli, onların da payı var".

Nəhayət, Prezident İlham Əliyev faktiki olaraq yardım əlini uzadır, dialoqa üstünlük verir. Lakin Azərbaycan rəhbərinin şərti qətidir: "...bir daha demək istəyirəm ki, Ermənistanı bu ağır böhranlı vəziyyətdən çıxarmaq üçün bir yol var, o da Azərbaycan ilə münasibətləri normallaşdırmaqdır. Biz buna hazırıq. Ancaq əlbəttə ki, buna nail olmaq üçün bir şərt var - Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır".

İndi qərar əks tərəfindir. Azərbaycan rəhbəri kifayət qədər konstruktiv mövqedədir və erməni silahlı qüvvələri işğal etdikləri ərazilərdən çəkildikdən sonra Ermənistanla əməkdaşlığa baxıla biləcəyini konkret ifadə edib. Bu imkandan rəsmi İrəvan və onun havadarları istifadə etməyəcəklərsə, günah özlərində olacaq!

**Newtimes.az**

# AZƏRTAC ispan dilində xəbər yayımına başlayıb

***Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC yanvarın 21-dən ispan dilində xəbər yayımına başlayıb. İndiyədək agentlik 7 dildə - Azərbaycan, rus, ingilis, fransız, alman, ərəb və Çin dillərində xəbərlər yayırdı. İspan dilinin əlavə olunması ilə agentliyin informasiya yayımını həyata keçirdiyi dillərin sayı 8-ə çatıb. Bu dildə buraxılan xəbərlər AZƏRTAC-ın saytının ispan dili versiyasında dərc olunur.***

Bununla bağlı agentlikdə təqdimat keçirilib. İdarə Heyətinin sədri Aslan Aslanov qeyd edib ki, ispan dilində informasiya resursunun yaradılması Azərbaycan reallıqlarının beynəlxalq aləmdə yayılması istiqamətində AZƏRTAC-ın atdığı daha bir uğurlu addımdır. AZƏRTAC bir sıra ispandilli ölkələrin xəbər agentlikləri - İspaniyanın EFE, Argentinanın Telam, Paraqvayın İP, Kubanın Prensa Latina agentlikləri ilə sıx əməkdaşlıq edir. Eyni zamanda, hazırda Kolumbiya və digər ispandilli ölkələrin aparıcı media qurumları ilə əməkdaşlıq müqaviləsinin imzalanması üçün danışıqlar aparılır. Bildirilib ki, Azərbaycanın siyasi, iqtisadi, mədəni və bir çox digər sahələrində uğurları, həmçinin ölkəmizdə keçirilən beynəlxalq tədbirlər barədə informasiyaların 400 milyonluq ispandilli auditoriyaya çatdırılmasında bu resursun böyük önəmi olacaq. "İspan dilində redaksiyanın yaradılması agentliyin ispandilli tərəfdaşları ilə informasiya mübadiləsini daha da gücləndirmək üçün yaxşı imkanlar açacaq. Bu, Azərbaycanla bağlı reallıqların böyük coğrafi məkanda yayılmasını təmin edəcək", - deyə Aslan Aslanov bildirib.

İspan dilində informasiya bölməsinin müdiri Nuridə Aslanova agentliyin ispandilli veb-resursu haqqında məlumat verib. Qeyd olunub ki, ölkəmizin həyatının bütün sahələrinə - iqtisadiyyat, mədəniyyət, turizm, Azərbaycan tarixinə dair ispan dilində geniş informasiya bazası yaradılıb. Bu gündən başlayaraq ölkədə baş verən mühüm yeniliklər və hadisələr haqqında xəbərlər AZƏRTAC-ın saytının ispandilli versiyasında və sosial şəbəkələrdə yayılır.

Agentliyin buraxılış üzrə baş redaktoru Elman Qədirov, multimedia və informasiya resursları redaksiyasının baş redaktoru El-



şən Şahbalayev ispan dilində xəbərlərin yayımının təşkili məsələlərindən, xəbərlərin hədəf auditoriyasına çatdırılması, xarici informasiya resurslarında və sosial şəbəkələrdə əlçatan olması üçün görülən və görülməli olan işlər barədə danışıblar.

İspan dili ingilis və Çin dillərindən sonra dünyada ən çox danışılan üçüncü dildir, 21 ölkədə rəsmi dil olaraq qəbul edilib və BMT-nin 6 rəsmi dilindən biridir. Dilin yayılma coğrafiyası əsasən Avropa, Şimali Amerika və Cənubi Amerika qitələridir. Bu baxımdan AZƏRTAC-ın ispan dilində xəbər yayması rəsmi dövlət tədbirləri, Azərbaycanın həyata keçirdiyi mühüm beynəlxalq və regional layihələr barədə məlumatların, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətlərin daha geniş auditoriyaya çatdırılması, ispandilli ölkələrdə erməni lobbisinin antiazərbaycan təbliğatına qarşı informasiya mübarizəsinin aparılması işinə böyük fayda verəcək. Eyni zamanda, agentlik üzvü olduğu beynəlxalq qurumlar və tərəfdaşlıq etdiyi agentliklərlə ispan dilində xəbər mübadiləsi aparacaq.

# Bir cib diktatorunun manifesti və ya Müsibəti-Əli

***"Hörmətli Fransa vətəndaşları, möhtərəm fransalılar! Sizdən xahiş edirəm ki, bundan sonra hakimiyyəti dəstəkləyən telekanallara baxmayın, "Le Monde" və ya "Liberation" oxumayın". Fransa müxalifətinin faktiki lideri, 50 yaşlı Marin Le Penin belə müraciəti onun siyasi karyerasının sonu olardı.***

Rusiyanın ən məşhur bloqeri, əslində real siyasətçiyə çevrilmiş Aleksey Navalnı "Xahiş edirəm - federal telekanallara baxmayın, hakimiyyətin nəzarətində olan qəzetləri və saytları oxumayın" tipli bəyanatla çıxış etsəydi, onun indiyədək əldə etdiyi nüfuz bir gündə puç olardı. Çünki adekvat siyasətçilər demokratiya, insan haqları, inkişaf və sosial tərəqqidən bəhs edəndə fikir azadlığını, plüralizmi, fərqli mövqelərin varlığının təminatını inkarı mümkünsüz məsələlər sayırlar. Yəni insana hava və su kimi gərəkli olan müxalif fikirli olmaq normal cəmiyyətin məntiqli siyasətçiləri üçün danılmaz normadır.

Lakin Azərbaycan hakimiyyətini diktatura yaratmaqda və insan haqlarını az qala hər saniyə pozmaqda suçlayan AXCP sədri Əli Kərimli belə düşünmür. ABŞ-da yaşamağa cəhd göstərən və peşəkar jurnalistikanı çoxdan bir düşərgənin, bir qrupun maraqlarına həvəslə fəda etmiş Sevinc Osmanqızının YouTube-dəki vloqunda sualları cavablayan Əli Kərimli xalqa çağırış etdi.

Özünü müxalifətin yeganə, səbatlı, möhtəşəm və ilaxır lideri sayan Əli bəy Kərimli xahiş etdi ki, vətəndaşlarımız "iqtidar mediası"nı yox, müxalifətin saytlarını, bloqlarını oxusun, sərhədin o tayından buraya səslərini çatdırmağa çalışan xışıltı və xırıltı sahiblərini dinləsinlər. O kəsləri ki, printerdə çap edilmiş kağızları yandırır, söyür, təhqirləri təsbeh muncuqları kimi sıralayır və tez-tez "mənim xalqım" deyirlər.

Kamera qarşısında boğaz arıtlayıb məntiqdə çeçəyənlərə liderlik eşqinə düşmüş Əli Kərimlini anlamaq çətin deyil. Siyasi mövqeyi və məntiqi çoxşaxəli olmayan, bu səbəbdən də arıtlanmış ağacı kol kimi qələmə verib siyasi qalalar quran Əli Kərimli demaqogiyasının zirvəsindədir. O, yanvarın 17-də "Məhsul" stadionunda keçirilmiş mitinqə az qala 50 min nəfərin qatıldığını söyləyir, səsinə qətiyyətə sırıdılmış ekstaz çalarları verərək hakimiyyəti hədələyir. Onun dediyinə görə, "Məhsul"a yığışmış on minlərin sayı əslində yüz minlərdir və "bu hakimiyyətin sonuna çox qalmayıb".

Son günlər müxalifət "lider"ləri-nin və "müstəqil bloqer"lərinin təqvimindəki məqamlara nəzər salaq:

1. Avropa Parlamentinin qətnaməsi
2. Mehman Hüseynovun aclıq aksiyası
3. "Məhsul" stadionundakı mitinq.
4. "Məhsul"dakı mitinqə qatılanların sayı

... Qətnamənin və mitinqin formal olaraq, Mehman Hüseynovun azadlığa buraxılması səbəbi ilə - bir anlıq olsa da, belə fərz edək - baş tutduğunu yəqinləşək, ikinci bənddən başlayaq.





Gənc və sadəlövh bloqer Mehman Hüseynov mart ayında azadlığa çıxmalı idi və ümid edirəm ki, çıxacaq. Onun həbsdə qalmasında hakimiyyət maraqlı deyil, çünki Mehman nə ciddi siyasi fiqurdur, nə məşhur ictimai xadim, nə müxalifət düşərgəsinin namlı mənsubu. O, sadəcə videobloqer, sosial şəbəkə fəalıdır.

Mehman Hüseynovun "dərhal və qeyd-şərtsiz" azad edilməsini indi tələb edənlər nə üçün o, həbs olunanda səslərini çıxarmırdılar? Nə üçün Mehmanın məhkəməsi gedəndə nisbətən sivil və təmkinli görünməyə çalışan Sevinc Osmanqızıdan tutmuş, tam qeyri-adekvat Vidadi İsgəndərli və marginallığın rekordunu vurmaq istəyənlərə dibdən "Burada mən varam" deyən Məhəmmədəli Mirzəli və Orduxan Temirxanadək, Vaşinqtonla Brüssel və Strasburq arasında "qardaş harayı" məkiyindəki Emin Hüseynovdan tutmuş, Müsavat Partiyasının qərargahında "növbəli aclıq" (!) keçirən şəxslərədək çox insan bir-iki "hayqırtı" yapıb işlərini bitmiş saydılar?

Avropa Parlamentinin sessiyası ərəfəsində Mehman Hüseynov nə üçün əsla ona xas olmayan ifadələr və cümlələrlə "aclıq məktubu" yazaraq olduğu yeri Moabitə, özünü də yeni və gənc Musa Cəlilə bənzətmək istədi?

Təhkiyələri davam etdirsək, Vaşinqtonda tələsik mətbuat konfransı keçirib "Qoymayın, hakimiyyət Mehmanı öldürmək istəyir" deyənlər 1938-ci ilin martında Parisdə jurnalistləri başlarına toplayan Oleq Budnitski və Andrey Şkuroya bənzədilər.

Xatırladım ki, Paris konfransında "Rusiyada aclıq elan edən vicdan məhbus"larından danışan Budnitski və Şkuronun əslində Almaniya kəşfiyyatının muzdlu agentləri olduqları, Himmlerin başçılıq etdiyi "Sicherheitsdienst des Reichsführers"in, yəni SS-in sifarişlərini yerinə yetirdikləri illər sonra faş olmuşdu.

Vaşinqtonda eyni konfrans təşkil etmək istəyən Yeqor Arxipovunsa nasistlərin "Abver"inin, yəni admiral Vilhelm Kanarisin idarə etdiyi "Auslandsnachrichten und Abwehramt"ın marionetkası olduğunu amerikalılar aşkarlamışdılar. Mehman Hüseynov Azərbaycana qarşı hazırlanan və mərhələlərlə həyata keçirən böyük oyunun sadəcə, bir fiqurudur. İndi onu müdafiə edənlərin arxasında duran əsl müəlliflərin bu gəncə münasibəti "mavr işini gördü, mavr getməlidir" prinsipi ilə müəyyənləşir.

Avropa Parlamentinin qətnaməsinə gələk. Qlobal qüvvələr nisbətində və dünya siyasi düzənində çəkisini çoxdan itirmiş Avropa İttifaqının üç əsas siyasi təşkilatı var - Avropa İttifaqı, ATƏT və Avropa Şurası.

Avropa Parlamentində Azərbaycana qarşı yeni proses ötən ilin noyabrın ortalarında başlanmışdı. Avropada "Breksit" və "sarı jiletlilər" təki çox ciddi problemlərin olduğu halda, Azərbaycana "zillət çəkib ölüm aclığına başlamış gənc"lə bağlı qətnamə layihəsi genişmiqyaslı, media və sosial şəbəkələrdəki emosional, qərəzli kampaniyadan sonra müzakirəyə çıxaraq "təcili qətnamə" statusunda tələsik qəbul olundu.

Qətnamə absurddur və hüquqi qüsurlarla dolu ultimatumdur. Sadəcə, bir fakt: qətnamədə Mehman Hüseynovun "dərhal, qeyd-şərtsiz azadlığa buraxılması" tələb olunur. Avropa Parlamenti Azərbaycanda məhkəmələri yox sayır, yoxsa istənilən məhkumun "Dərhal burax!" qışqırtısından sonra azad edilməsini hüquqi-prosessual norma bilir. Mehman Hüseynovun həbs müddəti, qeyd etdiyimiz kimi, mart ayında başa çatır.

Martdan sonra yeni istintaq olarsa, avropalı deputatların indiki isterikasını anlamaq olar. Axı Avropa Parlamenti haradan bilir ki, həmin müddətdə M.Hüseynov azad olunmayacaq?!

Qətnamədəki digər bənddə vurğulanır: "Azərbaycanda hüquq müdafiəçilərinə kobud təzyiqlər var". Hansı hüquq müdafiəçisinə? Bununla bağlı məhkəməyə müraciət varmı?

Sənəd başdan-ayağa tələb, ultimatum, hədədir. Sanki Azərbaycan bu təşkilatın üzvüdür və Nizamnamənin də hansısa tələbləri pozub. Reallıq isə odur ki, Avropa Parlamentinin üzvü deyilik, sadəcə, "Avronest" çərçivəsində əməkdaşlıq vardı. Eyni uğurla Afrika Birliyi də Azərbaycan qarşısında tələblər irəli sürə bilər.

Avropa Parlamentində qətnamənin müzakirəsi zamanı maraqlı kazuslar yaşanıb. Məsələn, 6 deputat "aclıq edən Pənah Hüseynov"un, 8 deputat isə "Hüseyn Mehmanlı"nın azadlığını tələb ediblər. Səbəb: təcili toplantıya çağırılan, "Azərbaycanla bir gənc ölüm aclığı edir, təcili köməyə ehtiyacı var" məlumatı alan deputatların total əksəriyyəti Mehman Hüseynovun kim olduğunu belə, bilmirlər.

Və ya "Azərbaycanda qeyri-hökumət təşkilatlarının bank hesabları dondurulub". Cənablar, Azərbaycanda belə QHT yoxdur. Varsa, lütfən, adını çəkin, biz də bilək. Müxalifətin kontrolundakı QHT-lərin hamısı buradakı hesablarını ləğv edərək Gürcüstanda hesablar açıblar, orada pulu nəqdləşdirib Azərbaycana gətirirlər.

"Azərbaycanda bir sıra radiostansiyaların yayımı qapadılmayıb". Qapadılmayıb, cənablar, FM dalğalardan orta dalğalara keçirilib. Avropa İttifaqının heç bir ölkəsində BBC, "Amerikanın səsi" və "Azadlıq radiosu" FM dalğalarda yayımda deyillər.

Avropa özünə rəva görmədiyini bizdən hansı ağılla tələb edir?!

Qətnamə Mehman Hüseynovla bağlı olsa da, sənədi oxuyun: Avropa Parlamentindəki liberallarla demokratların ALDE adlı qrupunun Corc Sorosun təşkilatları ilə birlikdə hazırladıqları sənədin bəndlərinin 98 faizi M.Hüseynovla bağlı deyil.

Gələk "Məhsul"dakı mitinqə.

Mitinqə hazırlıq ərəfəsində, sosial şəbəkələrdə həftələrlə davam edən isterik kampaniya çərçivəsində AXCP sədri Əli Kərimli "sizi etiraza çağırırıq" deyirdi. Mitinqdən sonra isə o, "Məhsul"a toplaşanları "AXCP və Milli Şuranı dəstəkləyənlər" kimi qələmə verdi. Əli Kərimlinin belə davranışını, müxalifətə mini-diktatorluq istəklərini elə müxalifət partiyalarının sədrləri az qala ikrahla qarşılayıblar.

"Bu hamımızın mitinqi olmalıdır!" deyərək insanları "Məhsul"a toplamağa çalışan, sonra isə mitinqi "AXCP-nin aksiyası" kimi qələmə verən Əli Kərimli həmişəki ampluasındadır.

Mitinqə qatılanların sayı da əsla önəmli deyil: baxmayaraq ki, Əli Kərimli israrla "ən azı 30 min adam gəlmişdi" deyir. Dünən Afinada 600 min yunan parlament binasının qarşısına yığışaraq aksiya keçirdilər - nə dəyişəcək! Rəsmi Afinanın siyasətində heç nə.

Fransada yüz minlərlə insanın "sarı jiletlilər" aksiyası səngimək bilmir. Prezident Emmanuil Makronun və ölkə hökumətinin siyasətində zərrə qədər dəyişiklik yox.

ABŞ-da son günlərdə 110 minə yaxın insan Meksika ilə sərhəd boyunca divarın tikilməsinə etiraz edərək küçələrə çıxıblar. Divarın inşası davam edir. Özlərini "dərin intellektə malik lider"lər sayan, müxalifətdə qocalıb ahıllaşanlar nədən anlamırlar ki, say yox, keyfiyyət önəmlidir?

İllah da ki, heç say da yox ortada.

***Elçin Alıoğlu***

# Azərbaycan-Rusiya münasibətləri kimləri narahat edir?

***Bu, real faktordur ki, Azərbaycan-Rusiya münasibətləri tarixi sınaqlardan çıxıb və bu gün müasir inkişaf mərhələsindədir. Dostluq, mehriban qonşuluğa əsaslanan əlaqələr beynəlxalq əməkdaşlıqdan tutmuş iqtisadi-ticari, hərbi, ictimai-siyasi və humanitar sahələrə qədər geniş spektri əhatə edir. Rusiya, eyni zamanda, idxala görə Azərbaycan üçün yaxın tərəfdaşdır. Məhz bütün bu məqamlara diqqət çəkən ekspertlər hesab edir ki, iki ölkə arasında iqtisadi əməkdaşlığa dair yol xəritələri əlaqələrin daha da genişlənməsinə, həmçinin, əmtəə dövriyyəsini artırmağa imkan verəcək.***

Eyni zamanda, Azərbaycanla Rusiyanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır. İki ölkə liderləri arasında qarşılıqlı inam və etimada söykənən müntəzəm əlaqələr isə, dövlətlərarası münasibətlərə xüsusi dinamizm verir. Xüsusilə, son illər iki ölkə arasında siyasi münasibətlərin və iqtisadi əlaqələrin inkişafında qarşılıqlı təmaslarla yanaşı, müxtəlif sahələri əhatə edən çoxsaylı dövlətlərarası və hökumətlərarası sazişlər mühüm rol oynayıb. Bütün bunlar isə, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət kursunun nə dərəcədə uğurlu olduğunu isbatlayır.

Azərbaycan-Rusiya münasibətlərinin hazırkı səviyyəsi və əlaqələrin inkişaf dinamikası, görünür, bəzi dairələri ciddi narahat edir. Elə bu səbəbdəndir ki, Rusiyanın müəyyən qurumlarında təmsil olunan erməni mənşəli məmurlar və ermənipərəst şəxslər iki ölkənin münasibətlərinə xələl gətirmək üçün növbəti yalanlar yaymağa başlayıblar. Belə ki, bəzi Rusiya vətəndaşlarının guya Azərbaycana buraxılmaması ilə bağlı böhtanlı açıqlama yayıblar.

Əslində, Azərbaycan Xarici İşlər Nazirliyi bu cəhdlərə ən tutarlı və adekvat cavabında bəyan olunur ki, Azərbaycan və Rusiya bərabərhüquqlu suveren dövlətlərdir, Azərbaycanla ultimativ tərzdə danışmaq qəbuledilməzdir.

## Başqasına quyu qazan, özü düşər

Bu gün Ermənistan, düşdüyü durumu yaxşı anlayır ki, Rusiya ilə münasibətləri getdikcə çətinləşir. Ermənistan bu reallığı da anlamalıdır ki, Azərbaycan Rusiyanın regiondakı əsas tərəfdaşıdır. Digər tərəfdən, Azərbaycan Ermənistandan fərqli olaraq, Rusiyadan qarşılıqsız təmənna güdmür. Əksinə, mövcud yüksək səviyyəli münasibətlərdən hər iki tərəf böyük fayda götürür.

Bu cür əsassız iddialara digər bir cavab da təkcə 2018-ci ildə Azərbaycana 880 min Rusiya vətəndaşının gəlməsi və onların mütləq əksəriyyətinin ölkəmizdən xoş təəssüratla ayrılmasıdır. Azərbaycanla Rusiya arasındakı yüksək səviyyəli münasibətlər qarşılıqlı maraqlar və iki xalqın dosluğu əsasında qurulub.

Bütün bunlar, onu deməyə əsas verir ki, Rusiya XİN-dəki ermənipərəst qanad Azərbaycan-Rusiya münasibətlərinin yaxşılaşması fonunda Rusiya-Ermənistan münasibətlərində yaşanan durğunluğu həzm edə bilmir. Məhz buna görə də, belə primitiv və heç bir əsası olmayan bəhanələrlə ölkələr arasında normal məcrada davam edən münasibətləri pozmaq istəyirlər. Politoloq Qabil Hüseynli hesab edir ki, son dövrlər Rusiya hökumətinin bir qanadı, Azərbaycan-Rusiya münasibətlərinin yüksələn xətt üzrə inkişaf etdiyi bir zamanda, bu münasibətləri sanki korlamaq niyyətinə düşüb: "Ortalıqda da ciddi bir səbəb olmadığından, erməni əsilli Rusiya vətəndaşlarının Azərbaycana girişinin qarşısının alınması məsələsini süni söz-söhbət obyektinə çevirirlər. Bu məsələdə ermənipərəst şəxs olan Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova daha fəal görünür. Amma bu fəallığın arxasında bir "dirijor çubuğu"nun olduğunu görməmək də mümkün deyil. Həmin "dirijor çubuğu"nun işarəsi ilə Mariya Zaxarova Azərbaycanı guya beynəlxalq Konvensiyaları pozmaqda təqsirləndirir, erməni əsilli Rusiya vətəndaşlarının ölkəyə buraxılmasının qarşısının alınmasını insan haqları pozuntusu kimi təqdim etməyə çalışır. Ancaq indi hansısa erməni vətəndaşının Azərbaycana gediş-gəlişinin qayğısına qalır. Halbuki, heç Rusiyanın özü də təminat verə bilməz ki, Azərbaycana gəlmək istəyən erməni əsilli Rusiya vətəndaşlarının sırasından təxribatçılıq və casusluq məqsədilə gəlməyənlər olmayacaq. Mariya Zaxarovanın bir həftənin içində ikinci dəfə məlum məsələni o şəkildə ortaya atması provokasiyadır və münasibətləri korlamağa hesablanıb və erməni məmurları bu hərəkətləri ilə özləri-özlərinə quyu qazırlar".

## Aleksandr Duqin: "Rusiya Azərbaycana qarşı daha Ermənistanın aləti olmayacaq"

Rusiya politoloqu, Avrasiya Hərəkatının rəhbəri Aleksandr Duqin hesab edir ki, Yerevan Rusiya ilə əməkdaşlıqdan Azərbaycana qarşı istifadə etməməlidir: "Rusiya Bakı ilə qarşıdurmada Ermənistanın əlində alət olmayacaq. İndi Rusiya Federasiyası Azərbaycanla strateji əməkdaşlığı inkişaf etdirir. Erməni-Rusiya münasibətləri heç vaxt anti-Azərbaycan meyilli olmayıb. Moskva həmişə Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu tanıyıb. Biz Ermənistanla müttəfiqik, amma bu müttəfiqlik Azərbaycana qarşı yönəlməyib. Azərbaycanla Rusiya Federasiyasının yaxınlaşması heç cür Ermənistanla münasibətlərdən asılı deyil. Bütün dostluq münasibətlərinə rəğmən, Rusiya etnik təmizləmələrə əsaslanan və heç kəsin tanımadığı monoetnik dövlət quruluşunu tanıya bilməz.

Politoloqun sözlərinə görə, Ermənistanın Rusiya ilə münasibətlərində kəskin soyuqlaşma müşahidə olunduğu üçün, işğalçılıq siyasətini davam etdirməklə Yerevan bu günə kimi onu ayaqda durmağa kömək edən Rusiya ilə münasibətlərini korlayır. Bu da yaxın perspektivdə Ermənistanın vəziyyətinin olduqca acınacaqlı şəkil alacağı barədə fikir söyləməyə əsas verir. Politoloq, həmçinin, qeyd edib ki, Azərbaycan və Ermənistanın xarici siyasətləri, ümumiyyətlə, müqayisə olunmazdır. Azərbaycanın xarici siyasəti ölkənin bütün istiqamətlərdə rifahını təmin etdiyi halda, Ermənistanın xarici siyasəti onun təcrid vəziyyətini daha da ağırlaşdırır və dünya dövlətlərinin Ermənistana olan etimadının sürətlə azalmasını şərtləndirir.

**A.SƏMƏDOVA**




## Türkiyənin "Bengü türk" kanalının "Azərbaycan ruzigarı" verilişi 20 Yanvar faciəsinə həsr olunub

*"20 Yanvar - Tariximizin qanlı və şanlı səhifəsi" kitab-albomu tamaşaçılara təqdim edilib*

Türkiyənin nüfuzlu "Bengü türk" televiziya kanalının "Azərbaycan ruzigarı" proqramı 20 Yanvar faciəsinə dair xüsusi buraxılış hazırlayıb. Kanalın ana xəbərində 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı törədilmiş hərbi cinayətə dair buraxılış barədə məlumat yayılıb.

Telejurnalist Səidə Ömərin təqdimatında yayımlanan verilişin qonaqları AZƏRTAC-ın Ankaradakı xüsusi müxbiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Sabir Şahtaxtı və sosial elmlər üzrə ekspert, yazıçı-tərcüməçi Mətin Yıldırım olublar.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı törədilmiş hərbi cinayətin səbəb, məqsəd və nəticələri barədə məlumat verən S.Şahtaxtı diqqətə çatdırıb ki, vətəndaşlar küçə və meydanlara axışaraq təcavüzkar Ermənistanın əsassız ərazi iddialarına qarşı öz etirazlarını nümayiş etdiriblər. Sovet rəhbərliyi bütöv bir xalqın nə istədiyini, nəyə etiraz etdiyini dəyərləndirərək ədalətli şəkildə çıxış yolu tapmaq əvəzinə hərbi güc tətbiq etməklə qan tökdü. Qeyd edilib ki, ulu öndər Heydər Əliyevin siyasi iradəsi nəticəsində keçmiş SSRİ rəhbərliyinin 20 Yanvar cinayətləri dünya ictimaiyyətinə çatdırıldı. Naxçıvana qarşı planlaşdırılan məkrli işğalçılıq planı dəf olundu. Hadisədən dörd il sonra Ümummilli Liderimizin təklifi və təkidi nəticəsində Azərbaycan parlamenti bu hadisəyə ilk dəfə olaraq siyasi-hüquqi qiymət verdi.

Türk xalqlarının dövlətçilik tarixində xarici qüvvələrin xalqlarımıza qarşı törətdikləri soyqırımları, hərbi təcavüzlər barədə məlumat verən Mətin Yıldırım qeyd edib ki, əslində 1990-cı il yanvarın 20-də Azərbaycanda törədilən hərbi cinayət, eləcə də torpaqlarımızın 20 faizinin işğal olunması bütün türk dünyasına qarşı həyata keçirilən səlib yürüşünün davamı və daha bir acı nəticəsidir.

Tamaşaçılara məlumat verilib ki, 20 Yanvar faciəsi sadəcə olaraq silahsız insanların qətlə yetirilməsi hadisəsi deyil. Bu faciə bütöv bir xalqın torpağına, ölkəsinə və dövlətinə qarşı planlaşdırılan məkrli məqsədlərə xidmət edən hərbi təcavüz və qəsddir.

Sonra aparıcının sualları cavablandırılıb.

Verilişdə aparıcı Səidə Ömər şəhidlərimizə həsr olunan şeirlər oxuyub. O, həmçinin 20 Yanvar hadisələrinin 25-ci ildönümü ərəfəsində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin və AZƏRTAC-ın birgə layihəsi olaraq nəşr edilən "20 Yanvar - Tariximizin qanlı və şanlı səhifəsi" kitab-albomu ilə bağlı tamaşaçılara məlumatlandırıb. Bildirib ki, tədqiqatçılar AZƏRTAC tərəfindən "Bengü türk" TV-yə hədiyyə edilən bu mühüm nəşrlə kanalın kitabxanasında tanış ola bilərlər.

## Erməni politoloq: Paşinyanı çətin günlər gözləyir



***Erməni cəmiyyətində Nikol Paşinyanın və ətrafının vədləri ilə bağlı məyusluq yaranır. İndi məlum olub ki, baş nazirin komandasında və parlamentdə bir çox şəxslər qoyulan tələblərə cavab vermirlər. Bu isə vətəndaşlar arasında hakimiyyətdən narazılığı artırır.***

***AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki bu fikirləri politoloq Viqen Akopyan yanvarın 21-də keçirdiyi mətbuat konfransında bildirib.***

Politoloq əlavə edib ki, indi zaman yeni hakimiyyətin əleyhinə işləyir. Erməni xalqı baş nazirdən sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasını gözləyir və onun hər addımını ciddi təhlil edir. Yaranmış vəziyyətdən ciddi narahatlıq keçirən hakimiyyət nümayəndələri, xüsusən baş nazir müxtəlif manevrlər edir, buraxdıqları bu və ya digər nöqsanlara bəraət qazandırmaq istəyirlər. "Komanda üzvləri başa düşürlər ki, "məxməri inqilabdan" sonra yaranmış rahat şərait artıq sona çatıb. İndi cəmiyyətdə tamamilə başqa əhval-ruhiyyə var və bu atmosfer böyük dərəcədə hakimiyyətin lehinə deyil", -deyə Akopyan diqqətə çatdırıb.

Vətəndaşların əsas diqqətinin yeni parlamentə yönəldiyini vurğulayan politoloq bildirib ki, ötən həftə hakim blok olan "Bizim addım" fraksiyasından bir neçə gənc və təcrübəsiz deputatlar qalmaqallı bəyanatlar veriblər və bundan sonra ictimaiyyətdən üzr istəyiblər. "Xüsusilə, bu blokun deputatı Ayk Koncoryanın Ermənistana dost olan İranı "avtoritar dövlət" adlandırması sosial şəbəkələrdə ciddi söz-söhbətə səbəb olub. Hesab edirəm ki, parlamentdə təmsil olunan gənc deputatlar bu işin incəliklərini öyrənməlidir", -deyə politoloq əlavə edib.

Erməni media eksperti Tiqran Koçaryan da yeni ölkə parlamentinə yanaşmada bədbindir. Onun sözlərinə görə, deputatların cəmi 10-15 faizi müəyyən təcrübəyə malikdir, qalanların cəmiyyət qarşısında xidmətləri isə Paşinyanın mitinqlərində iştirak etməkdən ibarətdir.

# Xalq Əli Kərimlini tutub, cəzalandıra bilər

*Müxalifətin mitinqlərinin təşkilində erməni lobbisinin maddi və mənəvi dəstəyi var*

***Müxalifətin dağıdıcı qanadı yenidən meydana çıxıb, aksiya keçirməyə cəhd etdi. Amma bu dəfə də, birləşmiş müxalif tör-töküntülərinin Sorosdan aldıqları göstərişi yerinə yetirə bilmədilər. Mitinq uğursuzluqla nəticələndi. Məhz aksiyanın uğursuzluqla nəticələnməsinin nəticəsi olaraq, 20 Yanvar faciəsinin ildönümü günü AXCP sədri Əli Kərimli və onun "söyüş qrupu"nun üzvləri olan ünsürlər qarşıdurma yaratmağa cəhd göstərdilər.***

Millət vəkili Azər Badamov bizə açıqlamasında bildirib ki, 20 yanvar günündə qarşıdurma yaratmaq istəyən "Milli Şura"da təmsil olunanların özləri bu faciənin baş verməsində günahkar şəxslərdir: "Onlar xalqımız, ölkəmiz üçün vacib olan günlərdə küçələrə çıxaraq, vəziyyətdən sui-istifadə edib insanları, guya öz arxaları ilə aparmaq istəyirlər. İnsanlar hüzn günündə, onsuz da Şəhidlər Xiyabanına axın edir və qəhrəmanlarımıza öz ehtiramlarını bildirirlər. "Milli Şura" da fürsətdən istifadə edib vəziyyəti gərginləşdirməyə çalışır. Azərbaycan hüquqi dövlətdir və hər kəs qanun qarşısında cavab verməlidir. Hər bir keçiriləcək mitinq və tədbir qanun çərçivəsində olmalıdır. Kim qanuna riayət etmirsə, qanun qarşısında cavabını verməlidir". Söhbət etdiyimiz digər müsahiblərimiz də, müxalifətin mitinq şousunun uğursuzluğa düçar olduğunu və bundan sonra qrant ayıran xarici fondlarla müxalifət arasında ciddi konfliktlərin yaranacağını söylədilər. Onu da bildirdilər ki, AXCP sədri Əli Kərimli qızışdırıcı mövqe sərgilədiyi üçün xalq onu tutub, cəzalandıra bilər.

**"Yurddaş" partiyasının sədri Mais Səfərli: "Cəmiyyət müxalifətin aksiyalarına dəstək vermir "**



- Müxalifətin bu gün Azərbaycanda sərbəst şəkildə aksiyalar keçirməsi ölkəmizdə demokratiyanın inkişafından xəbər verir. Bildiyiniz kimi, kütləvi aksiyaların keçirilməsi, "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunun tələblərinə uyğun həyata keçirilir. Toplaşmaq azadlığı konstitusiyamızda da təsbeh olunub. Bu hüquqdan da, hər kəs, o cümlədən, xarici maraqlı dairələrin əlində alətə çevrilən müxalifət də istifadə edir. Amma təəssüflər olsun ki, dağıdıcı müxalifət Qərb dövlətlərinə və dünya ictimaiyyətinə belə bir fikir aşılmaq istəyir ki, guya Azərbaycanda onların bu hüquqları pozulur. Amma gerçəkdə isə, onlar bu hüquqdan yararlanırlar. Yəni müxalifətin aksiyalar keçirilməsi üçün də normal şərait yaradılıb. Dünya ictimaiyyəti də bunu çox gözəl görür ki, müxalifətin aksiya keçirməsi üçün hər cür şərait yaradılır. Amma cəmiyyət müxalifətin aksiyalarına dəstək vermir. Çünki müxalifətin ictimaiyyət arasında nüfuzu olmadığı kimi, sosial bazası da yoxdur. Əslində, müxalifət heç özü də bilmir, nə istəyir. Sadəcə olaraq, hər hansı bir məsələ ortaya çıxanda, beynəlxalq təşkilatların maraqlarından çıxış edərək, onun ardınca qaçır və yerli-yersiz, o məsələdən yapışır və kütləvi aksiya keçirməyə cəhd göstərir. Amma aksiyalar müxalifətə rüsvayçılıq gətirir. Əgər bundan sonra da mitinq və aksiya keçirsələr, uğursuzluq təkrarlanacaqdır.

**"Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev: "Müxalifətin maliyyəsi xaricdən gəlir "**



- Adətən, müxalifət rəhbərləri hər hansı mitinqdən sonra müəyyən müddət gözləmə mövqeyində dayanırdılar, bir-iki ay, bəzən də daha çox zaman keçdikdən sonra növbəti aksiyanın vaxtını elan edirdilər. İndi isə, adətlərinə xilaf çıxaraq, növbəti həftəsonunda mitinq keçirəcəklərini elan etdilər. Sual oluna bilər ki, bunun səbəbi nədir? Azərbaycanda heç kəsə sirr deyil ki, müxalifətin maliyyəsi xaricdən gəlir. Onlara vəsait ayıran qüvvələr nə zaman sifariş verirlərsə, o zaman da müxalifət rəhbərləri mitinq elan edirlər. Son günlər Azərbaycanın əleyhinə baş verən hadisələrin xronologiyasına diqqət yetirsək, baş verənlərin mahiyyəti daha aydın olar. Əvvəlcə, bir neçə xarici qəzetdə Azərbaycanla bağlı qərəzli məqalələr yazdırıldı, sonra Avropa Parlamentinin tamamilə ədalətsiz qətnaməsi ortaya çıxdı, ardınca da müxalifət mitinq keçirdi. Mitinqdə müxalifət rəhbərlərinin hamısının çıxışlarında xaricdən əleyhimizə səslənən ifadələrlə üst-üstə düşən məqamlar var idi. Bu təsadüfdürmü? Əlbəttə ki, yox! Hadisələr şərh olunarkən, Ermənistanda baş verənləri qətiyyən unutmaq olmaz. Bu gün "məxməri inqilab"la Ermənistanda hakimiyyət dəyişib, iqtidar xarici orientasiyanı itirib, ənənəvi siyasətindən uzaqlaşıb, iqtisadiyyat çökür, erməni cəmiyyətinin sabaha inamı itib. Bir tərəfdən də, Dağlıq Qarabağla bağlı ilkin danışıqlar başlayıb. Zəif Ermənistan danışıqlar masası arxasında necə güclü görünə bilər? Bu situasiyanı onların xaricdəki havadarları da görür və indi çalışırlar ki, Azərbaycanda da mitinqlər aktivləşsin, dövlətin başı iç siyasətə qarışsın və biz də zəifləyək. Xatırlayırsınızsa, ötən əsrin 90-cı illərində də Azərbaycandakı kəskin daxili mübarizə ermənilərə torpaqlarımızı işğal etməyə imkan verdi. Anti-Azərbaycan qüvvələr danışıqlar masası arxasında iqtisadi, siyasi və hərbi baxımdan güclü Azərbaycan görmək istəmirlər. Müxalifət də onların tapşırığını yerinə yetirir. Burada əsas məsələ odur ki, cəmiyyətimiz, xüsusilə də, gənclər baş verən hadisələrin arxasında gizlənənləri başa düşsünlər və xarici havadarların əlində alət olmasınlar. Öz problemlərimizi sivil yollarla özümüz həll etməliyik, xarici qüvvələr yox.

**"Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova:" Müxalifət mitinq keçirmək göstərişini Avropadakı himayədarlarından alıb"**



- Uzun müddətdir ki, siyasi səhnədə görünməyən müxalifətin bəzi təmsilçiləri, xüsusilə də, "Milli Şura" üzvləri yenidən fəallaşıblar. Əslində, bu fəallıq heç də təsadüfi deyil. Prosesləri diqqətlə izlədikdə, görərik ki, radikal qüvvələrin fəallığının da arxasında Azərbaycana qarşı şər-böhtan kampaniyası aparanlar dayanır. Dəsti-xətt eynidir. Öncə, sosial şəbəkələr vasitəsi ilə törətdiyi cinayət əməlinə görə, həbs edilən Mehman Hüseynovun aclıq etməsi, təzyiqlərə məruz qalması ilə bağlı silsilə xəbərlər yayımlandı. Ardınca bu böhtanın doğru olmadığı sübuta yetirilməsinə baxmayaraq, tələsik formada Avropa Parlamentdə qərəzli müzakirələr keçirildi. Bu müzakirələrin ardından isə "Milli Şura" eyni şüarlarla mitinq keçirdi. Halbuki bu dəfə də mitinqə toplaşanların sayına nəzər saldıqda, Azərbaycan ictimaiyyətinin "Milli Şura" və orada təmsil olunanlara heç bir etimad göstərmədiyinin şahidi olduq. Üzləşdikləri növbəti uğursuzluqdan sonra indi onlar yenidən mitinq keçirmək istəyirlər. Qeyd olunanlar, onu deməyə əsas verir ki, təşkil olunan mitinqlər, sadəcə, "Milli Şura" və Əli Kərimlinin Avropadakı himayədarlarından aldığı tapşırıqları yerinə yetirmək üçün təşkil edilib. Onlar üçün mitinqə gələn insanların sayı, cəmiyyətin olmayan marağı yox, məhz alınan tapşırıqların "uğurla" yerinə yetirilməsi önəmlidir.

**GÜLYANƏ**

# Polşaya ixrac missiyası təşkil ediləcək

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) martda Polşanın paytaxtı Varşavaya təşkil olunacaq ixrac missiyasında iştirak üçün sənəd qəbulu elan edib. AZƏRTAC xəbər verir ki, ixrac missiyası martın 6-dan 10-dək davam edəcək. Missiya qida, alkoqollu içkilər, tekstil, kosmetika sahələrini əhatə edir.

İxrac missiyada iştirak etmək üçün ixracatçılar müsabiqə əsasında seçiləcək. Fevralın 7-də keçiriləcək müsabiqənin təşkilatçısı İqtisadiyyat Nazirliyi və AZPROMO-dur.

MADE IN AZERBAIJAN

## Türkiyə KİV-ləri: 20 Yanvar faciəsi məqsədli şəkildə törədilmiş hərbi cinayətdir







Türkiyənin aparıcı kütləvi informasiya vasitələrində 20 Yanvar faciəsi ilə bağlı geniş məlumatlar yayımlanıb. AZƏRTAC xəbər verir ki, Türkiyənin nüfuzlu media orqanlarında dərc olunan yazılarda yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şəhidlər xiyabanını ziyarət etməsi barədə oxuculara məlumat verilir.

Anadolu və İHA xəbər agentlikləri, TRT HABER, TRT AVAZ televiziya kanalları, o cümlədən "Sabah", "Hüriyyət", "Milliyyət", "Yeni çağ" və digər qəzetlər, o cümlədən çoxsaylı xəbər portalları 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda və Azərbaycanın digər rayonlarında xalqımıza qarşı törədilən hərbi cinayətdən bəhs ediblər.

Məqalə, reportaj və məlumatlarda 20 Yanvar faciəsinin məqsədli şəkildə törədilmiş hərbi cinayət olduğu diqqətə çatdırılır. Bildirilir ki, Azərbaycanı hərtərəfli blokadaya salan keçmiş SSRİ-nin rəhbərliyi təcavüzkar Ermənistanın əsassız ərazi iddialarına şərait yaradıb. İki ölkə arasında ədavət qızışdırılıb və Azərbaycan torpaqlarının işğalına zəmin yaradılıb.

Türkiyə KİV-ləri, həmçinin Ankara, İstanbul və Qars şəhərlərində, eləcə də ayrı-ayrı ölkələrdə təşkil olunan anma mərasimləri ilə bağlı geniş məlumatlar veriblər.

## Ərdoğan: "Suriyada bufer zonası yaradılmasını Putinlə müzakirə edəcəm"

Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan Moskvaya səfəri zamanı Rusiya Prezidenti Vladimir Putinlə Suriyanın şimalında təhlükəsizlik zonasının yaradılması məsələsini müzakirə edə biləcəyini deyib. Rəcəb Tayyib Ərdoğan bunu yanvarın 21-də Ankarada çıxışı zamanı bildirib. "Biz Vladimir Putinlə birgə danışıqlar aparacaq və Suriyadakı son hadisələri qiymətləndirəcəyik. Suriyanın şimalının terrorçulardan azad olunması və həmin rayonlarda təhlükəsizlik zonasının yaradılması məsələlərini də müzakirə edəcəyik", - deyə Türkiyə Prezidenti qeyd edib. Onun sözlərinə görə, Türkiyə ABŞ-ın maddi-texniki dəstəyi ilə Suriyada İŞİD üzərində tam qələbə qazanmaq əzmindədir.



Xatırladaq ki, Rəcəb Tayyib Ərdoğan ABŞ Prezidenti Donald Trampla danışıqlardan sonra Suriyanın şimalında bufer zonası yaratmaq niyyətini təsdiqləyib. Bildirib ki, Ankara yerdə təhlükəsizliyi təmin etməyə hazırdır, Amerika tərəfi isə bunu hava məkanında edəcək.

# Daşkəsən rayon icra hakimiyyətinin növbəti səyyar görüşü keçirilib



**_Dünən Daşkəsən rayon icra hakimiyyətinin hüquq-mühafizə orqanlarının, səhiyyə, təhsil, mədəniyyət, digər xidmət təşkilatlarının rəhbərləri kənd sakinlərinin iştirakı ilə Quşçu kəndində vətəndaşların səyyar qəbulunu keçiriblər._**

Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev çıxışında Quşçu kənd sakinləri ilə görüşü zamanı qeyd edib ki, ötən dövrlərdə kənddə tam müasir tələblərə cavab verən 360 şagird yerlik yeni məktəb binası tikilib, uşaq bağçası əsaslı təmir edilib, abadlıq işləri aparılıb, əhalinin içməli su və elektrik enerjisi ilə fasiləsiz təmin olunması sahəsində mövcud olan problemlər aradan qaldırılıbdır. Ə.Abıyev xüsusi olaraq vurğulayıb ki, Prezident İlham Əliyev 2018-ci ildə Azərbaycanda qazlaşdırılacaq yaşayış məntəqələrinin siyahısını təsdiq edibdir və həmin Sərəncamla Daşkəsən rayonu üzrə 2 yaşayış məntəqəsinin, o cümlədən, 2 mindən çox əhalinin yaşadığı Quşçu kəndinin də təbii qazla təchizatı nəzərdə tutulubdur. Rayon rəhbəri, qısa müddət ərzində, kəndin qazlaşdırılması işlərinin yüksək səviyyədə həyata keçirilməsində ölkə Prezidenti İlham Əliyevin öz xalqına, o cümlədən, daşkəsənlilərə göstərdiyi diqqət və qayğının olduğunu söyləyib. Sonra sakinlərin müraciətləri, problemləri ilə bağlı fikirlər səslənib.

Ə.Abıyev müraciətlərdə qaldırılan məsələlərin icrası ilə əlaqədar aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə tapşırıqlarını verib. Əksər müraciətlər yerində həll edilib.

Kənd sakinləri onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək, Möhtərəm Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Quşçu kənd sakinlərinin səyyar qəbulundan sonra, təsdiq edilmiş qrafikə uyğun



olaraq, Daşkəsən rayon icra hakimiyyəti başçısının Quşçu kənd inzibati-ərazi dairəsi üzrə nümayəndəliyinin 2018-ci ildə gördüyü işlər və 2019-cu ildə qarşıda duran vəzifələr mövzusunda illik hesabat yığıncağı keçirilib.

Hesabat yığıncağında çıxış edən Ə.Abıyev respublikamızın Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi kursa uyğun olaraq sürətlə inkişaf etdiyini, ölkə Prezidenti İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini və Onun rəhbərliyi altında ölkəmizin dünyada güclü, müstəqil və müasir bir dövlət kimi tanındığını vurğulayıb. Həmçinin, qeyd edib ki, dövlət başçısının ölkədə işsizliyin tamamilə aradan qaldırılması istiqamətində qarşıya qoyduğu vəzifələrə uyğun olaraq, Daşkəsəndə də iş yerlərinin açılması üçün mövcud imkanlardan maksimum istifadə olunur və AzerGold QSC-nin "Çovdar" filiz emalı sahəsi Quşçu kənd sakinlərinin daimi işlə təmin edilməsində mühüm rol oynayır.

2019-cu ildə qarşıda duran vəzifələrdən də danışan Ə.Abıyev bütün işlərə ciddi nəzarət etdiyini və hər bir icra nümayəndəsinin qarşısında konkret vəzifələr qoyduğunu bildirib.

Sonda YAP sıralarına qəbul olunan gənclərə partiyanın üzvlük vəsiqələri təqdim edilib.

**_R.HÜSEYNOVA_**

# "Erməni ordusundakı insan hüquqlarının pozulması fəlakətli dərəcədə dəhşətlidir" - Janna Aleksanyan

**_Ermənistanla "DQR"in işğalçı və separatçı ordularında baş verən çoxsaylı ölüm hadisələri erməni ictimaiyyətində ən çox müzakirə olunan mövzulardandır. Belə ki, Ermənistanın baş prokurorluğunun təqdim etdiyi sonuncu rəqəmlə bağlı, əsasən, hüquq müdafiəçiləri etiraz səslərini ucaldır, hakimiyyətin yalan danışdığını müxtəlif faktlarla sübuta yetirirlər._**

"Ermənistanın silahlı qüvvələrində və "Artsax"ın "müdafiə ordusun"da 2018-ci il ərzində cəmi 63 ölüm hadisəsi qeydə alınıb, onlardan 27-si çağırışçılar, 23-ü müqavilə əsasında hərbi xidmətdə olanlar, 2-si gizir və 11-i isə zabitlərdir". Bu barədə ermənilərin "1in" saytı Ermənistan baş prokurorluğuna istinadən yazır.

Qeyd olunur ki, həyatlarını itirmiş 63 hərbçidən 38-inin ölüm hadisəsi hərbi xidmətlə əlaqəlidir, 25-i isə hərbi xidmətə aidiyyatı olmayandır. Həmçinin, bildirilir ki, 7 ölüm hadisəsi tərəflərin təmas xəttində, 11-i intihar, yaxud intihar həddinə çatdırma, 2-si silahla ehtiyatsız davranış, 3-ü xəstəlik, 1-i minanın partlaması, 1-i qətl, 3-ü bədbəxt hadisə, 6-sı avtoqəza, 2-si hərbi xidmətin qaydalarının pozulması, 2-si isə uçuş, yaxud uçuşa hazırlıq nəticəsində baş verib.

Hərbi xidmətlə əlaqədar olmayan 25 ölüm hadisəsinin 11-i avtoqəza, 10-u xəstəlik, 4-ü isə bədbəxt hadisə nəticəsində yaşandığı bildirilir.Bildirilir ki, 2017-ci ildə ölüm halları 76 dəfə baş verib və 13 say fərqi ilə azdır. Lakin bununla yanaşı, 2017-ci illə müqayisədə hərbi xidmət zamanı hərbi xidmətə aid olmayan ölüm hadisələrinin faiz dərəcəsinin artması erməni hüquq müdafiəçilərinin də təlaşlı bəyanat səsləndirmələrinə səbəb olub.

## Hüquq müdafiəçisi Janna Aleksanyan: "Orduda biabırçı vəziyyət yaranıb. Cəzasızlıq hökm sürür"

Bununla bağlı hüquq müdafiəçisi Janna Aleksanyan 2017-ci illə müqayisədə hərbi xidmətdə ölüm hallarının azalması ilə bağlı statistik rəqəmlərdə hər hansı müsbət bir şey görmədiyini deyib. Onun sözlərinə görə, belə kiçik azalmanı müsbət hal kimi dəyərləndirmək olmaz. "Erməni ordusunda insan hüquqları fəlakətli dərəcədə dəhşətlidir" deyən Aleksanyan 63 rəqəminin çox böyük olduğunu bildirib və qeyd edib ki, bu vasitə ilə onlar, (hakimiyyət) sadəcə, öz simalarını qorumağa cəhd edirlər: "Orduda biabırçı vəziyyət yaranıb. Cəzasızlıq hökm sürür. Mən şəxsən bilirəm ki, iki ölüm hadisəsində əsgərlərə atəş açaraq, onların həyatlarına son qoyanlar hazırda azadlıqdadırlar. Ümumilikdə, orduya nəzarət güclü şəkildə aşağı düşüb".

Hüquq müdafiəçisinin sözlərinə görə, hətta yeni nazirin təyin olunmasına baxmayaraq, mənzərə dəyişilməyib: "Dəyişən yalnız nazir olub. Orduda başqa dəyişiklik yoxdur. Nazir məktublara və şikayətlərə cavab vermir. İndi onlar, ordudakı ölüm hallarını orduyla bağlı olmaması ilə əlaqələndirməyə cəhd edirlər. Ordu elitası, bax, bununla məşğuldur".

Janna Aleksanyan əlavə edib ki, əgər bənzər statistikaya növbəti ildə də rast gəlməmək üçün, ölüm hallarını gizlətmək deyil, cəzasıqlığı aradan qaldırmaq, nəzarəti gücləndirmək lazımdır: "Lakin bu gün ordu rəhbərliyində belə bir iradə yoxdur. Ötən il 63 ölüm hadisəsi qeydə alınıb, bu il də onlar bu rəqəmləri sıfırlaşdırıb, təkrəqəmli etməyə başlayacaqlar. Ancaq bu illər ərzində, bütün ölüm hadisələrini bir araya gətirsək, ordudakı özbaşınalıqlar nəticəsində, nə qədər gənc insanların itirilməsinin nəhəng mənzərəsini görmüş olarıq".



## Artur Sakunts: "Bizim, ilkin rəyləri gələn həftə ictimailəşdiriləcək və prokurorluğun təqdim etdiyi statistik rəqəmlərdən kifayət qədər fərqlənəcək"

Erməni saytı digər hüquq müdafiəçisi, Helsinki Assosiasiyasının Vanadzor şöbəsinin rəhbəri Artur Sakuntsun da ordudakı biabırçı vəziyyətlə bağlı hesabat hazırladığını yazıb. Qeyd olunur ki, məhz bu qurum da ordudakı insidentlərlə məşğuldur və hələ ki, əllərində olan faktları araşdırırlar. "Bizim, ilkin rəylərimiz gələn həftə ictimailəşdiriləcək və prokurorluğun təqdim etdiyi statistik rəqəmlərdən kifayət qədər fərqlənəcək", deyə sözügedən məlumatda bildirilir.

Beləliklə, fakt budur ki, istər işğalçı Ermənistanın, istərsə də separatçı "DQR" rejiminin ordularındakı vəziyyət çərçivədən çıxıb və ölüm və cinayət halları artmaqda davam edir. Hətta hakimiyyətin bütün cəhdlərinə baxmayaraq, onların gizlin saxlamağa çalışdıqları rəqəmlər hüquq müdafiəçiləri tərəfindən araşdırılaraq üzə çıxarılır, statistik rəqəmlərin yalanları ifşa edilir. Bu isə, söz yox ki, yeni hakimiyyətin də köhnə hakimiyyətdən fərqlənmədiyinə, əksinə, vəziyyətin dəyişməməsinə olan danılmaz sübutlardan biridir.

**_Rövşən NURƏDDİNOĞLU_**

# Fransada erməni mafiozlara qarşı xüsusi əməliyyat keçirilib

**_Fransada erməni mafiozlara qarşı xüsusi əməliyyat keçirilib. AZƏRTAC xəbər verir ki, erməni cinayətkar şəbəkəsinin dünyanın müxtəlif ölkələrindəki fəaliyyəti ilə bağlı çoxsaylı faktlara daha biri əlavə olunub. Bu dəfə Fransa polisi "Avropol"un köməyi ilə Avropada iri erməni mafiya qruplaşmasına qarşı xüsusi əməliyyat keçirib. Cinayətkarların ələ keçirilməsi məqsədilə Fransa ərazisində 27 evdə xüsusi axtarış-yoxlama əməliyyatı aparılıb. Bu zaman qruplaşmanın yüksək rütbəli üzvlərinin də olduğu, əsasən, ermənilərdən ibarət 21 nəfər həbs edilib. Əməliyyat zamanı 23 min avro, tütün məhsulları və müxtəlif növ 6 odlu silah müsadirə olunub._**




"Avropol"dan bildirilib ki, bu əməliyyat İspaniya və Almaniya hökumətlərinin də kömək etdiyi böyük bir istintaqın tərkib hissəsidir. Cinayətkarların ifşası üçün "Avropol" il yarım ərzində müxtəlif ölkələrin hüquq-mühafizə orqanları ilə məlumat mübadiləsi həyata keçirib və irimiqyaslı istintaqa başlayıb. Hazırda əsasən ermənilərdən ibarət mafiya qruplaşmasının digər üzvləri və onların cinayətlərinin aşkara çıxarılması üçün istintaq davam edir.

"Avropol"un iqtisadi cinayətkarlıq bölməsinin rəhbəri Pedro Feliççoçu "Associeted Press"ə müsahibəsində bildirib ki, erməni mafiyasının İspaniya və Belçikada böyük şəbəkəsi var. Ötən il onların bir qrupu zərərsizləşdirilib. Belçikada mafiyanın liderlərindən birinin 28 yaşlı Qriqor Sarkisyan olduğu üzə çıxıb. Onun adı danışılmış tennis oyunlarının təşkilində hallanır.

Polis erməni cinayətkar qruplaşmasının Almaniya, Slovakiya, Bolqarıstan və Niderlanddakı üzvlərinin də izinə düşüb. Şəbəkənin ABŞ, Çili və Misirdə də fəaliyyət göstərdiyi müəyyənləşdirilib.

Ermənilərdən ibarət qruplaşma cinayət əməllərini həyata keçirmək üçün yüzə yaxın peşəkar tennisçi və polis əməkdaşını pulla ələ alıb. İspaniya Mülki Qvardiyasının yaydığı məlumatda bildirilir ki, aralarında qrupun liderləri də olmaqla 15-dən çox şəxs həbs edilib. "Bitures" əməliyyatı çərçivəsində 11 evdə axtarışlar aparılıb, 167 min avro nağd pul, o cümlədən odlu silah, onlarla kompüter, kredit kartları, 5 bahalı avtomobil və müxtəlif sənədlər aşkarlanaraq götürülüb. Cinayətkar dəstəyə məxsus 42 bank hesabı dondurulub, daşınmaz əmlak obyektlərinə həbs qoyulub. Həbs olunan 15 ermənidən başqa daha 68 nəfər şübhəli şəxs haqqında istintaq davam edir. Adı danışılmış tennis oyunları qalmaqalında hallanan şəxslər arasında erməni cinayətkar qruplaşması ilə bağlı olan 28 peşəkar tennisçi də var. 2017-ci ilin fevralından fəaliyyət göstərən cinayətkar dəstənin razılaşdırılmış oyun əməliyyatları ilə milyonlarla avro gəlir əldə etdiyi ehtimal olunur.

# Şəhidlərin anım günündən istifadə etmək yolverilməzdir

***Şəhidlər Xiyabanını ziyarət zamanı siyasi şüarlar səsləndirmək, xiyabanı siyasi şouya çevirmək qəhrəmanların ruhuna hörmətsizlikdir. 20 Yanvarda Şəhidlər Xiyabanını ziyarət edən müxalifət partiyalarının siyasi şüarlar səsləndirmələri və polislə qarşıdurma yaratmaq cəhdləri, bu müqəddəs məkanı avantüra üçün seçmələri, ümumiyyətlə, qəbuledilməzdir.***



Şəhidlərin xatirəsinin anım günündə, belə bir müqəddəs gündə səsləndirilən şüarlar, bəllidir ki, dağıdıcı müxalifət tərəfindən əvvəlcədən planlaşdırılır və yalnız təxribat üçün hesablanır. Əfsuslar olsun ki, biz hər il bunun şahidi oluruq və bu, heç də şəhid analarına, bacı və qardaşlarına xoş təsir bağışlamır, əksinə, haqlı olaraq hiddətlərinə səbəb olur. Şəhidlərin dəfn edildiyi müqəddəs məkanda səs-küy salmaq, Azərbaycanın nə milli, nə də dini dəyərləri ilə bir araya sığmır. Bu hərəkət heç etik normalara da sığmır və bizim mental düşüncəmizə belə yaddır.

Doğrudur, 20 yanvar günü oynadıqları oyundan, göstərdikləri şoudan, oyunbazlıqdan sonra AXCP sədri Əli Kərimli onların Şəhidlər Xiyabanında siyasi aksiya keçirmək fikri olmayıb desə də, ən azından, bir gün öncə, idman kompleksində keçirdikləri mitinq zamanı etdikləri çağırış bunun əksini təsdiq edir. Təsdiq edir ki, AXCP sədri yalanlarını və vəziyyətdən çıxmaq üçün təkziblərini növbəti dəfə işə salmaq və bununla da, özünü sığortalamaq istəyir.

"Milli Şura"nın yanvarın 19-da "Mehman Hüseynov və bütün siyasi məhbuslara azadlıq" tələbi ilə keçirilən mitinqində AXCP sədri Əli Kərimlinin tərəfdarlarına müraciət edərək, yanvarın 20-də Şəhidlər Xiyabanının ziyarətinə çağırması, təsdiq edir ki, şəhidlərimizin anım günündə çıxardıqları oyunlar heç də təsadüfi deyil. Əksinə, əvvəlcədən planlaşdırılmış bir ssenaridir və hər il radikal müxalifət tərəfindən əvvəlcədən hazırlanmış bu oyunların Azərbaycan ictimaiyyəti şahididir.

Hər il, məhz 20 yanvar günündə, şəhid məzarlarının ziyarət edilməsi məqamında radikalların dırnaqarası fəaliyyəti yenilik deyil. İnsanların toplaşmasından, izdihamından vəcdə gələn AXCP sədrinin bundan istifadə etməsi, ən çirkin oyunlarını işə salmaq üçün canfəşanlıq etdiyi də göz qabağındadır. Özü də dəfələrlə ictimaiyyət bunun şahidi olub. Şahidi olub ki, hansı məqsəd, hansı amal üçün toplaşmasından asılı olmayaraq, Əli Kərimli insan izdihamını görəndə, başını əməlli başlı itirir və öz məqsədləri naminə bu izdihamdan yararlanmağa cəhd edir. Cəhd etməyinə edir, amma dərk etmir ki, bu izdihamın onunla, onun fəaliyyəti, məqsədləri, niyyətləri, onun yolu ilə heç bir əlaqəsi yoxdur. Ə.Kərimlinin belə mənasız cəhdlərinin avantüra olduğunun indi fərqində olmayan yoxdur, amma AXCP sədri özü bunun ya fərqində deyil, ya da özünü bilməzliyə vurub. Hər iki halda, radikalların qabaqda gedəninin kimliyi bəlli olur və onun bir hiyləgər, eyni zamanda, avantürist olduğuna zərrə qədər şübhə yeri qalmır.

### Əli Kərimlinin xalq adından çıxış etmək, xalqa müraciət etmək, hətta çağırış etmək üçün zərrə qədər mənəvi haqqı belə ola bilməz

Maraqlıdır, Ə.Kərimli kimdir ki, xalqı 20 yanvar günü Şəhidlər Xiyabanına çağırsın? Bu səlahiyyəti ona xalq verib, yoxsa belə bir imtiyaza malikdir? Mitinq zamanı ictimaiyyət bunun tamamilə əksini müşahidə etdi və doqquz milyonluq əhalinin idman kompleksinə heç bir faizinin belə toplaşmaması təsdiq etdi ki, Ə.Kərimli belə bir iddiada da ola bilməz. Yəni AXCP sədrinin xalq adından çıxış etmək, xalqa müraciət etmək, hətta çağırış etmək üçün zərrə qədər mənəvi haqqı belə yoxdur. Əgər onun belə bir haqqı da yox, azca imkanı olsaydı, əldən-ayaqdan getdiyi mitinqə arzuladığı sayda iştirakçı toplayardı.

Sual yaranır: məgər AXCP sədri və onun çağırışı olmasa, xalq şəhidlər xiyabanına gəlməyəcəkdimi? Yaxud xalqın Şəhidlər Xiyabanına gəlməsi üçün Ə.Kərimlinin müraciəti, çağırışı lazım idi, yoxsa onun çağırışı ilemi hər il xalq öz şəhidlərini anmaq üçün xiyabana gəlir? Şəhid balasını, şəhid qardaş və bacısını, ümumilikdə, bu xalqın şəhid övladlarını anmaq üçün nə kərimlilərin çağırışına, nə də digərlərinin göstərişinə ehtiyac yoxdur. Şəhidlik məqamı istər islam əxlaqına, istər türk milli mənsubiyyətinin əqidəsinə, istərsə də Azərbaycan xalqının mental düşüncəsinə görə çox uca, daim hörmət və ehtiramla yad edilən və ediləcək bir məqamdır. Bu baxımdan, AXCP sədri gec də olsa, dərk etməlidir ki, Azərbaycan xalqının Şəhidlər Xiyabanına toplaşması, şəhidləri anması üçün onun, yaxud bir başqasının çağırışı yersizdir. Əgər radikalların "başbiləni" bu yersiz çağırışları etməyi özünə rəva bilirsə, deməli, niyyəti bəllidir və bu, xoş niyyət ola bilməz.

### Şəhidlər AXCP, "Milli Şura", yaxud müxalifət uğrunda deyil, vətən uğrunda fəda olublar və onları özününküləşdirmək istəyən radikallar yanılırlar

Şəhidləri öz adına çıxan müxalifətçilərin buna nə dərəcədə haqqı çatır? Əvvəla, şəhidlər bu xalqın övladlarıdır və xalq tərəfindən hər biri hörmətlə və ehtiramla yad olunur. Bu faciədə həyatlarını itirənlər sıravi vətəndaşlar, xalq arasından çıxan könüllülərdir ki, onlar müxalifət uğrunda deyil, Azərbaycanın istiqlalı və azadlığı üçün canlarını fəda ediblər. Canlarını fəda edən insanlar bunu Ə.Kərimli, yaxud AXCP, "Milli Şura" üçün etməyiblər, onlar vətən uğrunda şəhid olublar. İndi kim kərimlilərə ixtiyar verir ki, şəhidlərdən, onların anım günündən istifadə edib siyasi dividend qazanmaq niyyətinə düşsünlər?

Maraqlıdır, insanları küçələrə çıxmağa çağıranların biri də bu şəhidlər arasında yer almayıb. Doğrudur, şəhidlik zirvəsi elə bir məqam deyil ki, hər adama bəxş olunsun və görünür, Tanrı bu şərəfə onların heç birini layiq bilməyib. Amma ən azından, belə bir sual ortaya çıxır ki, əcəba, bu insanların niyə bircə dənəsi əliyalın insanlar arasında olmayıblar? Niyə bircəciyinin də burnu belə qanamayıb? İndi şəhidlərin anım günündə hansı üzlə çağırış edirlər, çox maraqlıdır. Tarixə 20 Yanvar faciəsi kimi düşən bu günü alət kimi istifadə etmək istəyənlər, bunu özününküləşdirməyə üzü hardan tapırlar, bu, daha maraqlı sualdır. Bu sualın cavabını bilsəydik, yazardıq. Amma bu suala özlərinin cavab verməsi daha doğru olardı. Hərçənd, şəhidlərin anım günündən istifadə etmək yolverilməzdir.

***İnam HACIYEV***

## "Siyasi şoulardan çəkinmək lazımdır"



"Çox təəssüf edirəm ki, Milli Şura tərəfindən 20 yanvar - Ümumxalq Hüzn Günündə hay-küy yaratmaq, diqqəti özünə cəlb etmək şəhidlərin ruhuna bir hörmətsizlikdir. Təbii ki, bu diqqət mərkəzində olan bir prosesdir. Ona görə də maksimum dərəcədə bəzi siyasi qruplar bundan sui-istifadə edirlər". Bunu SİA-ya açıqlamasında Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, İnsan Haqları üzrə Birgə Qrupun üzvü Əliməmməd Nuriyev deyib.

Fond rəhbərinin sözlərinə görə, onlar bununla özlərinin böyük bir dəstəyə malik olduğunu göstərmək istəyirlər: "Lakin Milli Şura üzvləri bilməlidirlər ki, burada qaydalar mövcuddur. Polis tələblərə uyğun olaraq və anım mərasiminə qatılan vətəndaşların təhlükəsizliyini, nizam intizamı təmin etmək məqsədilə Şəhidlər Xiyabanına keçid norması müəyyənləşdirib və vətəndaşları qrup şəklində buraxır. Şəhidlər Xiyabanına gedən dövlət qurumlarının, ayrı-ayrı təşkilat və müəssisələrin əməkdaşları da məhz bu qaydaya uyğun keçiblər. İstənilən böyük tədbirlərdə o tədbirin idarəedilməsi prosesi baş verir. Polis yalnız bunu həyata keçirməyə çalışırdı. Təhlükəsizliyin qorunması vacib məsələdir. Çünki kütləvi insanlar olan yerdə təhlükəsizlik çox vacibdir. Bu məsələləri siyasiləşdirmək heç də düzgün addım deyildi və əksinə şəhidlərin ruhunu incitmək idi. Belə hallara yolvermək olmaz. Hər bir məsələnin öz yeri var. Siyasi şoulardan çəkinmək lazımdır. Bunun üçün başqa məkan, yer var. Onlar onsuz da yanvarın 19-da keçirdikləri mitinqdə kifayət qədər şou göstərmişdilər".



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Əli Kərimliyə qalan nə olacaq - LGBT???

***Bu dəfə bloger Mehman Hüseynovun və "aclıq aksiyası" keçirmək adı altında ucuz şou göstərib, şəxsi dividentlərini güdmək məqsədi daşıyan "Milli Şura" çetesi və onun dirijoru, AXCP sədri Əli Kərimli "Məhsul" stadionunda növbəti məhsuldarsız mitinqini keçirdi. Xüsusilə, Avropa Parlamentinin bədxah və qərəz xarakterli "qətnamə"sindən də bəhrələnəcəyini düşünən simasız "liderlər"in "etiraz aksiyası" adı altındakı siyasi artistizm cəhdləri bütün çılpaqlığı ilə gözlər önünə sərilib. Ümumiyyətlə, bundan öncə, "ateistlər və dindarlar qardaşdırlar və siyasi mübarizədə ayrı-seçkilik olmur" tipli anlaşılmaz və gülünc şüarları ilə yadda qalan AXCP sədrinin, çox yəqin ki, bu dəfə sözügedən "qətnamə"dən çıxaracağı tezisləri homoseksuallar və lesbiyanlarla bağlı olacaq. Əgər o, bu gün "homoseksuallarla müxalifətçilər qardaşdırlar və siyasi mübarizədə ayrı-seçkilik olmur" tipli şüar səsləndirərsə, artıq buna təəccüblənməyə də dəyməz.***

Beləliklə, artıq neçə gün ardıcıllığı ilə Ə.Kərimli və trolları sosial şəbəkədəki hesablarından insanlara ənənəvi çağırış edərək, hər zamankı kimi, "Budəfəki mitinq fərqli olacaq" deyib, guya bu şousunun əvvəlkilərdən daha coşqulu olacağını iddia etdilər. Əslində isə, hər mitinqindən öncə, bənzər fikirlərlə çıxış edən Ə.Kərimli, bununla əvvəlki mitinqlərinin uğursuz olduğunu etiraf edir. Yəni ötən mitinq alınmadı, budəfəki mitinq ondan fərqlənəcək və s... Amma biz, tamamilə əksini gördük. Ümumiyyətlə, ölkədə qarşıdurma yaratmağa çalışan "Milli Şura"nın əvvəllər radikal dindarlarla "cihad" edəcəyi deyilirdisə, bu dəfə homoseksuallar və lesbiyanlarla, bütövlükdə, LGBT təmsilçiləri ilə əvəzlənməsi böyük ehtimalla baş tuta bilər.

Yeri gəlmişkən, məsələ ondadır ki, Ə.Kərimli "Milli Şura"nın əvvəllər keçirdiyi mitinqlərindən sonra, iddia etməyə başlamışdı ki, guya onun keçirdiyi aksiyaları xarici media qurumlarında işıqlandırılır. Hətta sosial media vasitəsi ilə həmin media qurumlarının linklərini də paylaşan AXCP sədri guya bununla hər hansı "sübutu" göstərməyə çalışmışdı. Ancaq onun bu iddiasının ardınca, bəlli oldu ki, həmin media qurumları heç də ictimai-siyasi məsələləri şərh edən, bu ətrafda informasiya yayan mətbuat nümayəndəlikləri deyil, onların əksəriyyəti cinsi azlıqlara məxsus olan LGBT təşkilatlarının xəbər bloqlarıdır. Misal üçün, həmin linklərdən biri "wordpress"də təşkil edilən "newsheadline.press" bloqudur. Bu bloq isə LGBT-yə dəstək verməklə yanaşı, bilavasitə erməni lobbisinin əli ilə də maliyyələşdirilir. Adıçəkilən bloqda dərc olunan xəbərlərin böyük əksəriyyəti transmilli informasiya resurslarından paylanan informasiyalardan ibarətdir. Eləcə də, "newsheadline.press"də gedən yazılardan biri də belə bir başlıqla ictimailəşdirilib - "Azərbaycanda LGBT üzvlərinə "divan tutulur" (?!-R.N.).

Fakt budur ki, onların əsas hədəflərindən biri Azərbaycan xalqı ilə hakimiyyət arasında gərginlik yaratmaq, hətta şeytanla əməkdaşlığa gedərək, situasiyanı öz xeyirlərinə dəyişməkdir. Fəqət, bunun baş verməyəcəyini indidən iddia etmək mümkündür. Çünki sağlam, normal, küçə təfəkküründən uzaq, ləyaqət və mənəviyyatı həyatlarında kredo olaraq seçən insanlar belələrinin çığır-bağırlarına, ümumiyyətlə, əhəmiyyət vermir. Bu gün, Azərbaycan xalqı hər şeyi çox yaxşı görür, anlayır və anti-Azərbaycan qüvvələrin, onların əlaltılarının çirkin niyyətlərini həyata keçirməyə imkan verməyəcək. Ə.Kərimliyə isə qalan homoseksuallar, lesbiyanlar və radikal dindar qruplar, bir də Avropa Parlamentinin lüzumsuz, hətta işlənmiş tualet kağızından da qiymətsiz "qətnaməsi" olacaq...

# Ümumxalq hüzn günündə AXCP gənclərinin keyfi

***Yaxud 1990-cı ilin 19-dan 20-nə keçən yanvar gecəsində xalqı küçələrə çağırıb gülləbarana, tanklar altına saldıran zehniyyət, 2019-cu ilin 19 yanvar tarixində keçirilən mitinqdə, insanları növbəti aksiyalara və qiyamlara səsləyən zehniyyətlə eynilik təşkil edir***




Azərbaycançılıq, milli dövlətçilik və milli dəyərlər prinsipindən çıxış etmədiyi dəfələrlə sübuta yetirilən AXCP rəhbərliyi bu dəfə də eyni mövqeyini sərgilədi. Özü də Azərbaycan xalqının hüzn günü - 20 Yanvar hadisələrinin 29-cu ildönümündə!..





Hətta xalqımız üçün həssas olan bir günü belə, şəxsi və siyasi maraqlarına sərf edən Əli Kərimlinin "gəncləri", görünür, onun verdiyi "təxribat yaradın" əmrini canla-başla yerinə yetiriblər və...

...Və istədiklərinə nail olublar - 20 Yanvar günündə qəsdən haray-şivən salaraq, nəticədə, polis bölməsinə aparılıblar. Təbii ki, bütün bunlar əvvəlcədən hazırlanmış bir plandır və burada əsas məqsəd, məhz təxribat törətmək, hüquq-mühafizə orqanları ilə qarşıdurma yaratmaq olub. Daha doğrusu, Avropa Parlamentinin 20 Yanvar hadisələrinin 29-cu ildönümünə bir neçə gün qalmış - yanvarın 17-də çıxardığı bəlli "qətnaməsindən" 3 gün sonraya təsadüf edən təxribat cəhdi onlara verilən sifarişin tərkib hissəsi olaraq qiymətləndirilə bilər.

## Avropa Parlamentindəki ağalarının quyruq bulayan qullarına çevrilmiş sorossevərlər yığnağı - AXCP "gəncliyi" üçün, ümumiyyətlə, heç bir dəyər mövcud deyil

Yeri gəlmişkən, bu təhlili yazarkən, insanda, istər-istəməz belə bir fikir formalaşır ki, 1990-cı ilin 19-dan 20-nə keçən yanvar gecəsində xalqı küçələrə çağırıb gülləbarana, tanklar altına saldıran zehniyyət, 2019-cu ilin 19 yanvar tarixində keçirilən mitinqdə, xalqı növbəti aksiyalara və qiyamlara səsləyən zehniyyətlə eynilik təşkil edir. Beləliklə, fakt budur ki, Avropa Parlamentindəki ağalarının quyruq bulayan qullarına çevrilmiş sorossevərlər yığnağı - AXCP "gəncliyi" üçün, ümumiyyətlə, heç bir dəyər mövcud deyil. Əlbəttə ki, biz burada radikal dindarlardan tutmuş ateistlərə və hətta LGBT təmsilçilərinə qədər "lider" hesab edilən Əli Kərimli izinin olmasına qətiyyən şübhə edə bilmərik!

Məsələ də ondadır ki, sosial şəbəkədə guya 20 Yanvar şəhidlərinin xatirəsini yad etməyə getdiklərini reklam edən bir sürü yığnaq, sanki hansısa bir kef məclisinə yola düşdüyünü sərgiləyib.

## Ağaları - Sorosa ismarıc kimi göndəriblər və bunun icraçısı, məhz AXCP sədri Əli Kərimlidir

Yuxarıdakı fotodan da görünür ki, özlərinə məxsus "facebook" profilində "polisə aparıldılar" tipində haray-şivən qaldıran həmin ünsürlər, əslində, bunu, bilavasitə avropalı ağaları - Sorosa ismarıc kimi göndəriblər və bunun köklü icraçısı, məhz AXCP sədri Ə.Kərimlidir.

Ümumiyyətlə, yuxarıda da qeyd etdiyimiz kimi, heç bir milli dəyərlərə malik olmayan bu tiplər, əslində, ailələrindən, böyüklərindən imtina edənlər, təhsillərini yarımçıq qoyaraq, Ə.Kərimlinin "siyasət" bataqlığında çirkaba bulaşanlar, cəmiyyət arasında ən kiçik mədəniyyətə belə malik olmayan tüfeylilər və daha kimlər... kimlərdir.

## Əli Kərimlinin əxlaqsızlıq şinelindən çıxan "gənclər"

Məgər doğma anasını döyərək, polisə düşən, bu hadisəni "siyasi motivə" yazan, "youtube"də içki masasında göbəyiaçıq şəkildə sərxoşluğunu yayıb, bununla fəxr edərək, AXCP sədri ilə şəkil çəkdirən Fatimə Mövlamlı, hazırda Avropada "siyasi mühacir" adı altında var-gəl edən və hələ bir neçə il öncə, Bakıdakı otellərin birində rus qızı ilə qeyri-ənənəvi intim münasibəti ilə bağlı biabırçı videogörüntüsü yayılan Səid Nuri, eləcə də, AXCP-nin tarixinə daha öncələrdə yazılmış Qənimət Zahid, Azər Əhmədov tipli rüsvayçılıq halları Ə.Kərimlinin "müxalifətçi gənclik istehsalı" hesab oluna bilməzmi? Biz, hələ



Ə.Kərimlinin oğlu Türkel Kərimlinin Avropanın gecə barlarındakı kef məclislərini də bu sıralamaya əlavə edə bilərik!

Beləliklə, fakt ortadadır və söz yox ki, Kərimlinin trolları sabahdan, bəlkə də, indidən fotodakı həyasızlıqlarına özlərinə lazım olan donu geyindirməyə çalışacaqlar. Ancaq onlar, bir faktı anlamırlar ki, artıq qatar çoxdan gedib və həmin fotonu görən sağlam düşüncəli istənilən insan bir daha Ə.Kərimli "gəncliyinin" necə "inkişaf" etdiyini görür. Görür və sadəcə, nifrət edir. Çünki bu vəziyyət, həqiqətən də, nifrətə, hiddətə və kəskin qınağa səbəb olan bir haldır!

***Rövşən RƏSULOV***

## "Əli Kərimli gəncləri qələbəyə yox, həbsxanaya göndərəcək"



"Əli Kərimlinin oğlu İngiltərədə konfort həyat yaşayır. Utanmadan gənclərə deyir ki, sizi qələbəyə aparacam. O, gənclərdən istifadə edib, yüz minlərlə qrant qazanıb". Bu barədə SİA-ya Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədrinin müavini, tanınmış QHT sədri, ictimai fəal Niyaməddin Orduxanlı Milli Şuranın son mitinqinə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, keçirilən aksiya radikal müxalifət qüvvələrinin birgə aksiyası idi: "Əli Kərimli nifrət etdiyi adamların qapılarını gəzib onlardan xahiş edirdi. Bu da onu göstərir ki, Kərimli yenə xaricdən sifariş alıb. Onu yaxından tanıyan adamlar yaxşı bilir ki, xaricdən sifariş almasa idi, heç zaman Arif Hacılının, İlqar Məmmədovun qapısında boynunu pükməzdi. Bilirsiniz ki, AŞPA-da Azərbaycanla bağlı məsələnin müzakirəsi var və bu, daha çox iqtidara lazım idi. Əli Kərimli tələbəlik illərindən iqtidarların və müxtəlif xarici dairələrin hər zaman xidmətində olub. ABŞ-ın Milli Demokratiya İnstitutunun tapşırığı ilə 2003-cü ilin prezident seçkilərində Etibar Məmmədovu müdafiə etməsinə də bu yaxınlarda ən sadiq tərəfdarlarından biri Qorxmaz Əsgərov aydınlıq gətirdi. O yazıb ki, Kərimli xarici tapşırıqla İsa Qəmbəri deyil, Etibar Məmmədovu dəstəklədi. ABŞ səfirinin tapşırığı ilə Ki Uest (Key West) şəhərində Qarabağla bağlı danışıqlar zamanı elan olunmuş mitinqin təxirə salmasını da hamı bilir. Onu hamı tanıyır, heç kim etibar etmir və hər kəs bacardığı formada istifadə edir. Bunları ona görə söyləyirəm ki, bəzi gənclər ola bilsin onu yaxşı tanımır. Onu yaxından tanıyanlar əvvəlkilər kimi xəyal qırıqlığına uğrayacaq. O tərəfdarlarını nəinki qələbəyə aparmayacaq, əksinə onlara yalnız məhrumiyyətlər yaşadacaq. Hər zaman Kərimli bu cür şoular göstərməklə bir sıra gənclərin həyatlarını məhv edib".

N.Orduxanlı bildirib ki, bu gün Əli Kərimliyə jurnalistlər sual verməlidir ki, İngiltərədə yaşayan oğlun ali təhsilini başa vurduğu halda, niyə gəlib öz əsgərlik xidmətini yerinə yetirmir: "Qışqıra-qışqıra deyir ki, sizi qələbəyə aparacam. O gəncləri qələbəyə yox, həbsxanalara göndərəcək. Hər zaman olduğu kimi, Qənimət Zahidov canlı efirdə deyir ki, Əli Kərimlinin oğlu İngiltərədə təhsilini tam başa vurub və orada işə düzəlib. Ən azından Əli Kərimlinin oğlu fəraridirsə, bunu onun yanında olan gənclər bilməlidir. Öz övladlarının İngiltərədəki unversitetlərə yüz minlərlə avro vəsait ödəyirdi. Oğlunu əsgərlikdən yayındıran bir adamın səmimiyyətinə inanmayın. Bilin ki, bu adam növbəti dəfə həmin gənclərdən, şəxslərdən istifadə edir. Aldığı tapşırığı yerinə yetirir. O insanların hesabına Kərimliyə yüz minlərlə avro vəsait verəcəklər. O da həmin pulları İngiltərədə konfort həyat yaşayan övladlarına xərcləyəcək".

***Ceyhun Rasimoğlu***

## "Milli Şuranın məqsədi Avropadakı dostlarından qrant almaqdır"



"Mitinqi təşkil edənlər yaxın keçmişə nəzər salmalıdırlar. Çünki onlar 1990-cı illərdə də keçirdiyi mitinqlər vasitəsilə, dövlətin xalqın başına oyunlar, müsibətlər gətirdilər. Ölkəmizi ağır vəziyyətlərə düçar etdilər, vətəndaş müharibəsinə qədər gətirib çıxardılar. O dövrdə həyata keçirilən müsibətlər illərlə aradan qaldırıldı. İndi yenə iştaha düşüblər? Azərbaycan xalqı müxalifətin törətdiyi özbaşınalığın əziyyətini ilə öncə çəkib və bu gün onlara nə inanır nə də arxaları ilə gedir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib.

Azərbaycan Konstitusiyasında, qanunlarda müxalifətin mövcud olması, fəaliyyət göstərməsinin qadağan olunmadığını deyən deputat söyləyib ki, kimliyindən asılı olmayaraq istənilən şəxs fəaliyyətini qanunauyğun şəkildə həyata keçirməlidir: "İstənilən dövlətdə müxalifətin olması, qəbul olunandır. Azərbaycan da belə dövlətlərdən biridir. Azərbaycan iqtidarı heç zaman müxalifətə qarşı etirazını, narazılığını bildirmir. Ölkəmizdə siyasi partiyalar sərbəst şəkildə fəaliyyət göstərir, bunların sayı da çoxdur. Azərbaycanda ölkəmizi tənqid edən Avropa dövlətlərindən çox müxalif siyasi qurumlar fəaliyyət göstərir. Lakin ölkəmizdə kimliyindən asılı olmayaraq bütün vətəndaşlar qanun qarşısında eyni öhdəliyə malikdir. Hər kəs qanunvericiliyə əməl etməli, qanunu pozmamalıdır. Əks halda, cavab verməlidir".

Milli Şuranın ötən gün qarşıdurma yaratmaq cəhdinə toxunan E. Məmmədov qeyd edib ki, burada məqsəd şəkillər çəkdirib qrant almaq üçün Avropadakı dostlara göndərmək idi: " Amma onların istəyi alınmadı. Çünki, ölkəmizdə qanun keşikçiləri var və əqidəsindən, vəzifəsindən, kimliyindən asılı qanuna əməl etməyənlərə qarşı sərt tədbirlər görülür". Deputat vurğulayıb ki, Milli Şura belə hərəkətlər ilə xaricdəki dostlarının xoşuna gəlib qrantlar almaqla Azərbaycan dövlətçiliyinə qarşı heç bir fəaliyyət həyata keçirə bilməyəcək: "Onlar xaricdən alınan sifariş əsasında Azərbaycanda dövlətçiliyə qarşı çıxmaq, çevrilişə cəhd etmək, təxribat törətmək istəyirlər. Lakin onlar istəklərinə nail ola bilməyəcəklər. Çünki, Azərbaycan möhkəm daxili sabitliyə, stabilliyə malik bir dövlətdir. Ölkəmizin nüfuzu gündən-günə artır və dövlətçiliyimizi yüksək səviyyədə qorunur".

***Nailə Məhərrəmova***

# “Məhsul”da məhsuldarsız mitinq - rəzalət və rüsvayçılıq!

## Yaxud 2800 nəfərlə “müxalifət lideri” olmaq olmaz...

***“Milli Şura”nın təşəbbüsü ilə dağıdıcı müxalifət partiyalarının yanvarın 19-da birgə keçirdikləri növbəti mitinq də rüsvayçı sonluqla başa çatdı. Əslində, bu, gözlənilən idi ki, hətta eyni dar baxışlara malik olan müxalifət düşərgəsi başbilənlərinin hamısı bir yerə yığışsalar belə, onların tərəfdar sayları aşağı-yuxarı 2000-2500 nəfərdən bir az yuxarı ola bilər və onların maksimum 2800 nəfərlə “aksiya” keçirmələri bu proqnozları yetərincə doğrulmuş oldu.***



Bu, açıq-aşkar xalq etimadsızlığının, ağır məğlubiyyətlərin məntiqi nəticəsi kimi də qiymətləndirilə bilər. Əgər bu gün müxalifət partiyaları ayrı-ayrılıqda mitinq və aksiya keçirsələr, onların sıraları bir neçə yüz nəfərdən ibarət olar ki, məhz həmin reallığı dərk etdiklərinə görə, onlar çox yəqin ki, bir yerdə mitinq keçirmək qərarına gəlmişdilər. Ancaq istədikləri kütləvilik baş tutmadı...

O cümlədən, daha bir reallıq budur ki, sözügedən mitinq də öz sönüklüyü, zəifliyi, xaotikliyi, bütövlükdə isə, naşı təşkilatçılığı, eləcə də, sistemsizliyi ilə diqqət çəkdi.

### Fakt da budur ki, siyasi meyitlərin elə siyasi arenadaca iy verib-iylənmələri artıq onlara az-çox inananları da ürpəndirib

25 ildən artıqdır ki, küçə təfəkküründən əl çəkməyən - simaları, şüarları, populizm üzərində qurulmuş şüar və çağırışları dəyişməyən müxalifətdən bundan artığını da gözləməyə dəyməzdi. Əgər dünənə qədər onların bənzər aksiyalarına bir neçə yüz nəfər, hətta min-min beş yüz nəfər adam toplaşırdısa, indi həmin “elektoratları”nı da itirmiş oldular. Axı insanlar nə qədər, neçə il “biz gələcəyik” tipli və eyni səs tembrləri altında az qala qulaq pərdələrini deşən yalan vədlərə, çıxışlara dözməlidir. Yaxud insanlar mənası olmayan əsassız ittihamlara qulaq asmağa borcludularmı? Əlbəttə ki, yox! Bax, gerçək məntiq, gerçək fakt da budur ki, siyasi meyitlərin elə siyasi arenadaca iy verib-iylənmələri, artıq onlara az-çox inananları da ürpəndirib. Necə deyərlər, radikal müxalifət ölüb, yerdən götürəni yoxdur...

### Çıxış edən 10-a yaxın şəxsin heç biri nə real bir təkliflə çıxış etdi, nə də konstruktiv ideyalar irəli sürmədi

Bu gün sağlam düşüncəli ictimai rəy sosial şəbəkələrdən və s. vasitələrdən də gördü, şahidi oldu ki, rüsvayçı, biabırçı bir mitinqdə əllərinə mikrofon alıb, çıxış edən 10-a yaxın şəxsin heç biri nə real bir təkliflə çıxış etdi, nə də konstruktiv ideyalar irəli sürmədi - yalnız radikal, dağıdıcılıq, ictimai-siyasi asayişi pozmağa yönəlmiş sətiraltı ifadələr və s... Budur, radikal müxalifətin əsl “siması”, yaxud simasızlığı!

Daha bir diqqətçəkən məqam isə, aksiyada ziyalıların, cəmiyyətin sosial-ictimai həyatında fəal olan şəxslərin görünməməsi oldu. Çünki ictimai-siyasi proseslərdən xəbərdar olan ziyalı kəsimi də bunların hansı “məharətlərə” malik olduqlarını yaxşı anlayır.

### Əli Kərimli özünün uydurduğu utopik xəyalına nə qədər inanıbsa, mitinqi təkbaşına təşkil etdiyini iddia kimi irəli sürüb

Bu arada, “Məhsul”dakı aksiya “müxalifətin birgə mitinqi” adlandırılsa da, həmin mitinqə digər müxalif partiyaların rəhbərləri qatılmamışdılar. Qatılanlar isə, uzağı, beş-on nəfərlik partiya təmsilçiləri olublar ki, AXCP sədri Əli Kərimli dərhal bu məqamı fövtə verməyərək, özünü “vahid müxalifətin lideri” statusunda təqdim etməyə cəhdlər göstərdi. Hətta Ə.Kərimli özünün uydurduğu utopik xəyalına nə qədər inanıbsa, mitinqi təkbaşına təşkil etdiyini iddia etdi və kütləyə inanılmaz vədlər verdi. Bu isə, bütövlükdə, onun nə qədər pafosluğa, özünütərifə meyilli olduğunu bir daha sübuta yetirdi. Çünki daha bir məqam isə, Kərimlinin təkbaşına mitinq təşkil etmək iddiasını irəli sürdüyü anda, mitinq iştirakçılarının ona istehzalı münasibətləri oldu.

### Sözügedən amil növbəti dəfə vətəndaşların radikal qrupların çağırışlarına biganə qaldığını, bu qrupların heç bir sosial dayağının olmadığını açıq nümayiş etdirdi

Ümumiyyətlə, 10-dan artıq müxalifətçi siyasi qurumun iştirak etdiyi bu aksiya rəzalətin bariz nümayişi kimi qiymətləndirilə bilər. Bu, bilavasitə düşərgənin sosial bazasının və elektoratının olmamasından irəli gələn hal kimi də qeyd oluna bilər ki, sözügedən amil növbəti dəfə vətəndaşların radikal qrupların çağırışlarına biganə qaldığını, bu qrupların heç bir sosial dayağının olmadığını açıq nümayiş etdirdi.

Beləliklə, bütün bu reallıqlardan sonra Əli Kərimli və onun yan-yörəsi əgər özlərinə hörmət qoymağı bacarararlarsa, siyasi səhnəni tərk etməyə məhkumdurlar. Ancaq onların bu addımı atmayacaqları bəribaşdan bəllidir. Görünür, onlar, həqiqətən də, siyasi meyit olaraq, elə siyasi tabutlarının müxalifət düşərgəsindən qaldırılmasında, siyasi dəfnə də bu minvalla getmələrində israr edirlər...

*Rövşən NURƏDDİNOĞLU*

***P.S. Ən çox yadda qalan isə, mitinqə qatılan azsaylı insanların hərəsinin əlindəki bir telefonla şəkil çəkdirməsi oldu. Əslində, bunun da bir səbəbi var və bu səbəblər, başlıca olaraq, AXCP sədri Əli Kərimlinin siyasi mühacir biznesinə əsaslandırıla bilər. Yəni bu gün həmin mənzərədən belə bir sual meydana çıxır ki, mitinqdən başqa, şəkil çəkdirməyə yermi yoxdur?***

# AzerTelecom “Azerbaijan Digital Hub” layihəsi çərçivəsində Azərbaycan Dəmir Yolları QSC ilə əməkdaşlığa başlayıb

***Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi AzerTelecom şirkəti Azərbaycanı regionun rəqəmsal mərkəzinə çevirəcək “Azerbaijan Digital Hub”layihəsinin həyata keçirilməsinə başlayıb.***

Bu istiqamətdə ilk olaraq,əsas səhmdarı Bakcell şirkəti olanAzerTelecom və Azərbaycan Dəmir Yolları QSC arasında mövcud dəmir yollarınınqorunma zolağı boyunca dayanıqlı magistral fiber-optik kabel xətlərinin çəkilməsinə dair müvafiq sənədlər imzalanıb və layihənin icrasına başlanılıb. Bununla bağlı zəruri olan investisiyalar da yatırılıb.

Dəmir yolları boyunca dayanıqlı fiber-optik magistral infrastrukturun qurulması Azərbaycanınhazırda sahib olduğu Nəqliyyat və Enerji dəhlizləri statusu ilə yanaşı ən qısa perspektivdə ölkənin Regionun Rəqəmsal Mərkəzinə (Azerbaijan Digital Hub) çevrilməsinə imkan verəcək. Layihə AzerTelecom tərəfdən həmçinin Azərbaycan Dəmir Yolları Qapalı Səhmdar Cəmiyyətinin Azərbaycanın Nəqliyyat Habına çevrilməsi layihəsi çərçivəsində aparılır.

Dəmir yolları boyunca magistral fiber-optik kabel xətlərinin çəkilişi AzerTelekom şirkətininhəyata keçirdiyi “Azerbaijan Digital Hub” layihəsinin komponentlərindən biridir. “Azerbaijan Digital Hub” layihəsi çərçivəsində Azərbaycanın gələcəkdə Cənubi Qafqaz, Yaxın Şərq, Orta Asiya və Cənub Asiya ölkələrini əhatə edən böyük bir regionun Rəqəmsal Mərkəzinə çevrilməsi hədəflənir. Qurulacaq Rəqəmsal Mərkəz perspektivdə bu regionlarda yaşayan 1.8 milyard əhalinin (dünya əhalisinin 1/4-i) müxtəlif rəqəmsal xidmətlərlə daha yaxşı təmin edilməsinə şərait yaradacaq.

“Azerbaijan Digital Hub” layihəsinin icrası nəticəsindəAzərbaycanın telekommunikasiya ekosistemi ən qabaqcıl dünya standartları səviyyəsinə qalxacaq, ölkənin İnternet alışında xarici ölkələrdən asılılığı minimuma endiriləcək, perspektivdə isə Azərbaycan regionda İnternetin satışında mərkəzi ölkəyə çevrilərək,rəqəmsal xidmətlər id-

optik kabel xətlərinin çəkilişi ölkənin rəqəmsal infrastrukturunun gücləndirilməsinə, ölkə boyu yeni davamlı infrastrukturun formalaşmasına və qonşu dövlətlər olan Rusiya, Gürcüstan, Türkiyə və İran ilə dayanıqlı genişzolaqlı fiber-optik kabel bağlantılarının formalaşması və bu infrastrukturların ölkəmizdə kəsişməsinə,eləcə də ölkədə telekommunikasiya sektorunun inkişafına mühüm təkan verəcək.

Layihə çərçivəsində magistral internet kabel xətlərinin çəkilməsi və istifadəyə verilməsinin ilkin fazasının reallaşmasıbu il ərzində nəzərdə tutulub. Bu layihənin icrası Şimal-Cənub, Şərq-Qərb istiqamətlərində olan müxtəlif beynəlxalq telekom operatorlarının infrastrukturlarının ölkəmizdə kəsişməsinə gətirib çıxaracaq.Layihənin reallaşması həmçinin Azərbaycan Dəmir Yolları QSC-nin da infrastrukturunun gücləndirilməsinə, həmin infrastruktur boyunca yeni texnologiyaların tətbiqinə, ümumilikdə isə rəqəmsallaşmaya xidmət edəcək. Bu da Azərbaycan Dəmir Yolları QSC-nin əhaliyə daha dayanıqlı xidmətlər verməsinə töhfə verəcək.

Dəmir yolları boyunca magistral fiber-

xal edən tərəfdən bu xidmətləri istehsal və qonşu regionlara ixrac edən ölkəyə transformasiya olunacaq. Beləliklə, dünyanın İnternet xəritəsinə London, Frankfurt, Sofiya, İstanbul, Moskva, Amsterdam, Dubay iləyanaşı Bakı da əlavə olunacaq. Layihəümumilikdə Azərbaycanda yeni iş yerlərinin açılmasına, ölkəyə valyuta axınına, iqtisadiyyatın rəqəmsallaşmasına və inkişafınatöhfə verəcək.

AzerTelecom Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru olan Bakcell şirkətidir. AzerTelecom ölkənin bütün əsas region və şəhərlərini əhatə edən şaxələnmiş və dayanıqlı fiber-optik kabel şəbəkəsinə sahibdir. AzerTelecom şirkətinin beynəlxalq şəbəkəsi isə dünya üzrə bütün əsas telekommunikasiya hablarına birləşir. Şirkət internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil şəbəkələrdə nəqletmə, beynəlxalq tranzit, DDoS hücumdan müdafiə, VPN, Data Mərkəz xidmətləri, SİP telefoniya və digər telekommunikasiya xidmətləri təqdim edir.

# İki qadının daxili orqanlarında narkotik aşkarlanıb



Cənub Ərazi Baş Gömrük İdarəsinin Biləsuvar gömrük postunda İran İslam Respublikasından piyada yolla gələn Azərbaycan Respublikası vətəndaşları - iki qadın gömrük nəzarətindən keçən zaman özlərini şübhəli, narahat apardıqları üçün saxlanılıb və şifahi sorğu-sual aparılıb. Dövlət Gömrük Komitəsindən SİA-ya verilən məlumata görə, sorğu-sual zamanı onlardan üzərlərində qadağan olunan və gömrük orqanına mütləq bəyan edilməli hər hansı predmet, o cümlədən də narkotik vasitə və psixotrop maddələrin olub - olmaması soruşulub. Vətəndaşlar isə öz növbəsində üzərlərində gömrük nəzarətinə təqdim edilməli hər hansı predmetin olmadığını bildiriblər.

Lakin daxili orqanlarında narkotik vasitə gizlətdikləri ehtimal olunaraq onların tibbi müayinədən keçmələri qərara alınıb. Həkim yoxlamasından keçərkən qanunsuz əməllərinin üstünün açılacağını başa düşən qadınlar çıxılmaz vəziyyətdə qalaraq daxili orqanlarında narkotik vasitələr gizlətdiklərini etiraf ediblər.

Beləliklə, birinci qadının daxili orqanında 1 ədəd bükümdə ümumi çəkisi 49 qram olan, ağ, xırda kristal halda psixotrop maddə - metamfetamin və ümumi çəkisi 287 qram olan, açıq qəhvəyi rəngli narkotik vasitə - heroin, digər qadının daxili orqanında isə 1 ədəd bükümdə, ümumi çəkisi 236 qram olan, açıq qəhvəyi rəngli narkotik vasitə - heroin aşkarlanıb. Xatırladaq ki, metamfetamin adlı preparat “Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən psixotrop maddələrin I Siyahısı”na daxildir. Faktla bağlı araşdırma aparılır.

# İnsan hüquqlarının müdafiəsi Azərbaycan dövlət siyasətinin tərkib hissəsidir

***Demokratik proseslərin və milli inkişafın ən vacib şərti kimi qəbul olunan insan hüquqlarına hörmət və onların müdafiəsi hər bir dövlətin ali vəzifəsidir.***

Müasir dövrdə insan hüquq və azadlıqları sahəsində baş verən köklü dəyişikliklər həm milli, həm də beynəlxalq qanunvericilik normaları əsasında tənzimlənir. Hər hansı dövlətin hüquq sistemini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarından və dövlətlərarası müqavilələrdən kənar təsəvvür etmək mümkün deyil.

Görkəmli hüquq elmləri doktoru İsaxan Vəliyev yazır: “Müstəqilliyinin bərpasından sonra dünya birliyinin üzvü kimi demokratik-hüquqi inkişaf yolunu seçən Azərbaycanda insan hüquqlarının demokratik dəyərlər çərçivəsində təmini bu sahədə dövlət siyasətinin əsas istiqamətlərindən biri hesab olunur. Azərbaycanın dünya birliyində müstəqil, hüquqi-demokratik dövlət kimi tanınması, ölkədə insan hüquq və azadlıqlarının təmin edilməsi, habelə, müdafiə olunması, məhz Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir.

Bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev son illərdə respublikamızda insan hüquq və azadlıqlarının təmini prosesini daha da təkmilləşdirmiş və Azərbaycan bu sahədə böyük uğurlar qazanmışdır.

Konstitusiyanın qəbulundan sonra Azərbaycanda insan hüquqları ilə bağlı bir sıra yeni normativ-hüquqi aktlar qəbul olunmuş, mövcud qanunvericilik aktlarına xeyli sayda dəyişikliklər edilmiş, insan hüquqları sahəsində 30-a yaxın beynəlxalq Konvensiya və sazişlər imzalanmışdır. Ulu Öndərin 1998-ci il 22 fevral tarixli “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərmanı və 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” insan hüquqlarının təminatı ilə bağlı yeni mexanizmlərin hazırlanması istiqamətində fundamental sənədlər hesab olunur. Təsdiq edilən Dövlət Proqramında, eyni zamanda, ölkəmizdə insan hüquqları üzrə müvəkkil təsisatının yaradılması nəzərdə tutulmuşdur. Ombudsman təsisatının yaradılması isə hüquqi dövlət quruculuğu istiqamətində aparılan islahatların məntiqi davamı idi”.

2001-ci il dekabrın 28-də Milli Məclisdə “Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili haqqında” Konstitusiya Qanunu qəbul edilmiş və müvəkkil təsisatının yaradılması, fəaliyyəti üçün maddi və hüquqi baza formalaşdırılmışdır. 2002-ci il martın 5-də Ulu Öndər Heydər Əliyev “Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun tətbiq edilməsi barədə Fərman imzalamışdır. 2002-ci il iyulun 2-də Milli Məclisdə Azərbaycanın ilk Ombudsmanı seçilmişdir.

İnsan hüquqlarının təmin olunmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirən Prezident İlham Əliyev 2007-ci ildə Sərəncam imzalayaraq bu sahədə dövlət proqramının qəbul olunduğu günü - iyunun 18-ni Azərbaycanda İnsan Hüquqları Günü elan etmişdir.

Ümummilli Lider tərəfindən insan hüquqları sahəsində aparılan islahatların uğurlu davamı olaraq, Prezident İlham Əliyevin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə “Azərbaycanda İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı”nı təsdiq olunmuşdur. Bu sənəd, faktiki olaraq, Ulu Öndər tərəfindən qəbul edilmiş “İnsan Hüquqlarının Müdafiəsinə dair Dövlət Proqram”ının məntiqi davamı olmaqla insan hüquqlarına yeni bir baxış sərgiləmiş, dövlət və vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir. İ.Vəliyevin fikrincə, milli fəaliyyət planı son dövrlərdə insan hüquqları sahəsində əldə olunan o böyük nailiyyətlərdən biri kimi ölkəmizdə siyasi sahədə milli maraqlardan biri olan insan hüquqlarının təmini üzrə görülən ardıcıl tədbirlərin genişləndirilməsində hüquq-müdafiə mexanizmlərinin təkmilləşdirilməsində və əhalinin müxtəlif qruplarının hüquqlarının qorunmasının gücləndirilməsində yeni mərhələnin başlanğıcı olmuşdur.

Dövlət başçısının 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” təsdiq edilmişdir. Burada əhalinin müxtəlif, o cümlədən, həssas qruplarına aid olan şəxslərin - qaçqın və məcburi köçkünləri, məhkumlar, hərbi qulluqçular, qadınlar, uşaqlar, ahıllar, əlillər və başqalarının hüquqlarının təmin edilməsində səmərəliliyin artırılması məqsədilə fəaliyyət istiqamətləri müəyyən olunmuşdur.

Bütün bunlarla yanaşı, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə 2000-ci ildən indiyədək 300-ə yaxın dəyişikliklər edilmişdir ki, bu dəyişikliklərin böyük əksəriyyəti humanistləşdirməyə, liberallaşdırmaya, azadlıqdan məhrumetmə cəzalarının azaldılmasına və bütövlükdə, insan hüquq və azadlıqlarının təminatı mexanizminin təkmilləşdirilməsinə xidmət etmişdir.

Göründüyü kimi, insan hüquq və azadlıqlarının təminatı Azərbaycan dövlətinin yeritdiyi siyasətin prioritet istiqamətlərindən biridir və onun daim təkmilləşməsi yönümündə mütəmadi iş aparılır.

Müstəqil Azərbaycan həm də söz, fikir və mətbuat azadlığının maksimum səviyyədə təminatı baxımından MDB məkanında ən qabaqcıl yerlərdən birini tutur. Həyata keçirilən hüquqi islahatların qayəsini, ilk növbədə, insan hüquqlarının etibarlı təminat, vətəndaşlara qayğılı münasibət, onlara yüksək keyfiyyətli xidmətlərin göstərilməsi təşkil edir ki, bu da təbiidir. “Dövlət siyasətinin mərkəzində ancaq bir qüvvə - Azərbaycan vətəndaşı dayanır” - deyən ölkə Prezidenti, mütəmadi olaraq, ictimaiyyətlə görüşərək vətəndaşların qayğıları ilə maraqlanır, onların müraciətlərinə həssaslıqla yanaşılmasını daim diqqət mərkəzində saxlayır və humanizm siyasətini uğurla davam etdirir. Təsadüfi deyil ki, ötən dövrdə Prezidentin imzaladığı sərəncamlarla 3800-dən çox şəxs azadlığa qovuşmuş, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul edilmiş 4 amnistiya aktı 40 mindən çox şəxsə şamil edilmişdir.

Düşünürəm ki, Prezident İlham Əliyevin cəza siyasətində dekriminallaşdırma və humanistləşdirmə meyillərinin üstünlük təşkil etməsi dövlətimizin iqtisadi, siyasi, sosial və sair sahələrdə əldə etdiyi uğurlar və bununla bağlı beynəlxalq aləmdə güclü dövlətlərə xas olan artan nüfuzunun hamı tərəfindən qəbul edilməsi ilə şərtləndirilir.

“Güclü dövlət” Konsepsiyasının gündəmə gətirilməsi insan hüquq və azadlıqlarının müdafiəsi məsələsinə yeni bucaqdan baxılmasını zəruri etmişdir. Akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi, güclü dövlət anlayışını, ilk növbədə, dövlətin iqtisadi və siyasi sistemini legitimlik əsasında idarə etmək bacarığı kimi başa düşmək lazımdır. Müəllif, haqlı olaraq qeyd edir ki, güclü dövlət dünyəvi dövlətdir. Güclü dövlət trasparent dövlət-idarəetmə sistemini dəstəkləmək üçün vətəndaşın demokratiklik hüququndan, demokratiyanın ifrat həddə yuvarlanmasının və nəticədə, çıxılmaz vəziyyətə düşməsinin qarşısını alan güclü hüquq-mühafizə strukturları ilə birlikdə istifadə edə bilən dövlətdir. İnsan hüquqlarına və azadlıqlarına hörmət etməyən güclü dövlət təsəvvürə gətirmək mümkün deyildir.

İnsan hüquq və azadlıqları və onun təminatı mexanizmi arasındakı münasibətlərdə ən optimal variantı tapmaq heç də sadə məsələ deyildir, əksinə, kifayət qədər mürəkkəb və qlobal problemdir. Ölkə Prezidenti İlham Əliyev tərəfindən aparılan uğurlu siyasətin sözügedən problemin həlli istiqamətində mühüm rol oynadığı heç kimdə şübhə doğurmur.

İ.Vəliyev daha sonra yazır: “Dövlət başçısının praqmatik siyasətinin əsas istiqamətlərindən biri demokratikləşmə prosesini, siyasi və hüquqi islahatları cəmiyyətin inkişaf ahənginə uyğun daha da dərinləşdirmək, son nəticədə, qanunun aliliyini, insan hüquqlarının prioritetliyini bütün səviyyələrdə təmin etməkdir. İqtisadi cəhətdən inkişaf etməmiş hansısa dövlətdə demokratikləşməyə və vətəndaş cəmiyyəti quruculuğuna yönələn cəhdlər uğursuzluqla nəticələnir, çünki tətbiqinə cəhd göstərilən mütərəqqi yeniliklər vətəndaşların real yaşayış səviyyəsi və həyat tərzi ilə uzlaşmır. Məhz bu reallıqdan çıxış edən Azərbaycan Prezidenti hər iki təmayülə vəhdət şəklində yanaşılmasını vacib sayır və ölkənin uzunmüddətli inkişafını, məhz demokratik və iqtisadi islahatların paralel şəkildə davam etdirilməsi şərti ilə real hesab edir.

Oktyabrın 14-də Bakıda - Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimində Prezident bir daha vurğulamışdır ki, Azərbaycanda heç bir məhdudiyyət yoxdur. Sərbəst toplaşma azadlığı, söz azadlığı və bütün digər azadlıqlar tam şəkildə təmin edilir: “Demokratiyaya bizim bağlılığımız hansısa təşkilata xoş gəlmək üçün deyil, biz bunu şüurlu surətdə edirik ki, ölkəmiz hərtərəfli şəkildə inkişaf etsin”- deyən dövlət başçısı ölkəmizdə bundan sonra da bütün azadlıqların təmin ediləcəyini vurğulamışdır.

Bu sahədə qazanılan uğurlar, bir daha təsdiq edir ki, Azərbaycanda insan hüquq və azadlıqlarının yüksək səviyyədə təminatına yönəlmiş kompleks tədbirlərin davam etdirilməsi yüksək nəticələrin əldə olunmasına imkan yaradır. Ölkəmizdə insan hüquqlarının təmini istiqamətində həyata keçirilən tədbirlər, vətəndaş cəmiyyəti quruculuğu prosesinin əsas şərtlərindən biri kimi çıxış etməklə, nəinki respublikamızda, həmçinin, beynəlxalq arenada yüksək qiymətləndirilir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

Azərbaycan insan hüquqlarının qorunması ilə bağlı bütün beynəlxalq sazişlərə qoşulmuşdur. İnsan hüquqlarının və azadlıqlarının qorunmasına, dövlət səviyyəsində göstərilən diqqətin ifadəsi kimi, “İnsan hüquqlarının və əsas azadlıqların qorunması haqqında” Avropa Konvensiyasından və “Mülki və siyasi hüquqlar haqqında” Beynəlxalq Paktdan irəli gələn öhdəliklərin genişmiqyaslı implementasiyası təmin edilmişdir”.

Ölkəmizin insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, bu sahədə normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən tanınmış Avropa İnstitut və “beyin mərkəzləri”ndə tədqiqat və təhsil problemləri üzrə mütəxəssislərin hazırlanması, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlər dövlətin insan hüquqlarına verilən xüsusi diqqətin göstəricisidir.

Ölkə Prezidenti Cənab İlham Əliyevin 10 fevral 2017-ci il tarixli “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Sərəncamı və bu əsasda Cinayət, Mülki və İnzibati Prosessual qanunvericiliyə, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” qanuna insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində edilmiş əlavə və dəyişikliklər fondun maarifləndirmə işinin əsas leytmotivini təşkil edir. Bir sıra beynəlxalq institutların, tanınmış ekspertlərin də etiraf etdiyi kimi, Azərbaycanda insan hüquq və azadlıqlarının təminatı istiqamətində yaradılmış qanunvericilik bazası, hətta bir çox sivil Avropa ölkələrinə də nümunə ola bilər. Ölkəmizin “ASAN Xidmət” institutunun nümunəsinin bir sıra ölkələrdə uğurla tətbiqi bunu bir daha təsdiq edir.

Hazırda sürətlə qloballaşan dünyanın ayrılmaz hissəsinə çevrilmiş Azərbaycan cəmiyyətində vətəndaşın hüquq və azadlıqlarının dərəcəsi və səviyyəsi dinamik şəkildə yüksəlməkdədir. Çünki insan hüquqları sahəsində fəaliyyət iqtisadi-siyasi və digər islahatları demokratikləşdirmə prosesinin, ictimai inkişafın keyflyyətcə daha yüksək pilləsinə doğru irəliləyişin mühüm tərkib hissəsidir. Şəxsiyyətin hüquq və azadlıqları konsepsiyası təsərrüfat münasibətlərində, sosial və hüquqi təsisatların demokratikləşdirilməsi prosesinin dərinləşdirilməsində, cəmiyyətdə özünüidarənin və özünütənzimetmənin genişləndirilməsində, cəmiyyətin mənəvi-əxlaqi mühitinin təzələnməsində, siyasi-hüquqi mədəniyyətin yüksəldilməsində yeni prinsiplərin bərqərar olmasının geniş perspektivlərini nəzərə almaqla inkişaf edir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

səs

Son səhifə 22 yanvar

## İsveçrə alimləri xərçəng hüceyrələrinə qarşı yeni mübarizə üsulu tapıblar



İsveçrəli alimlər xərçəng xəstəliyi ilə mübarizədə yeni üsulu uğurla sınaqdan keçiriblər. Bazel Universitetində siçanlar üzərində aparılan tədqiqatlar nəticəsində alimlər xərçəng hüceyrələrinin piy hüceyrələrinə çevrilməsinə nail olublar. Bu üsul sayəsində şişlərin metastazlar yaratmasının qarşısı alınıb.

Tədqiqatçı qrupun rəhbəri Qerhard Xristofori əldə olunan nəticələri izah edərkən bildirib ki, bu uğurda yeni hazırlanmış təsir maddələrinin kombinasiyası mühüm rol oynayır. Eyni zamanda, xərçəng hüceyrələrinin yüksək plastik təbiətə malik olması və öz bioloji xarakterini dəyişə bilməsi alimlər üçün mühüm faktorlar olub. Alim qeyd edib ki, qan dövranında hərəkət edən və dəyişkən xassəyə malik xərçəng hüceyrələri sürətlə yayıla bildiyi kimi, digər hüceyrələrə çevrilmə xassəsinə də malikdir. Məhz bu xassəni nəzərə alan alimlər bədxassəli xərçəng hüceyrələrini "yenidən proqramlaşdırmağa" və onların təhlükəsiz piy hüceyrələrinə çevrilməsinə nail olublar. Xərçəng hüceyrələri piy hüceyrələrinə çevrildikdən sonra yayılma dayanıb və hərəkətsiz hala gələn yeni hüceyrələr orqanizm üçün heç bir təhlükə yaratmayıb.

Rosiqlitazon və trametinib adlı iki maddənin kombinasiyasından ibarət preparat siçanlar üzərində uğurla sınaqdan keçirilsə də, onun uzun müddət tədqiqat yolu keçməsi lazım gələcək. Alimlər bildiriblər ki, yeni preparatın əsas üstünlüklərindən biri də xərçəng hüceyrələrinin inkişafını dayandırmaqla yanaşı, eyni zamanda, digər orqanlara mənfi təsir göstərməməsidir. Hazırda döş vəzi xərçənginə qarşı sınaqdan keçirilən yeni mübarizə üsulunun xərçəng xəstəliyinin digər formalarına qarşı da tətbiqi nəzərdə tutulur.

## Morfindən daha güclü ağrıkəsici dərman hazırlanıb



Amerikalı alimlər unikal təsirə malik ağrıkəsici dərman hazırlayıblar. AZƏRTAC "Medikforum"a istinadla xəbər verir ki, işlənib hazırlanan preparat keyitmə keyfiyyətinə görə tibb praktikasında daha çox istifadə edilən morfini üstələyir. İndiyədək daha çox təsirli, ən geniş yayılan keyitmə üsulu morfindir. Bu, allergiya reaksiyalı insanları keyfiyyətli tibbi xidmətlə təmin etməkdən ötrü morfindən istifadəni əhəmiyyətli dərəcədə genişləndirməyə şərait yaradır. Bu halda yeni preparatın təsirli maddələri daha təhlükəsizdir, opioidlərə nisbətən daha çox səmərəlidir və asılılıq əmələ gətirmir.

"AT-121" adlandırılan yeni ağrıkəsici heyvanların, o cümlədən insana daha yaxın olan meymunların üzərində sınaqdan keçirilib. Təcrübələrin nəticəsi onun ağrı hisslərini aradan qaldırmaqda, həmçinin opioid asılılığının müalicəsində müvəffəqiyyətini göstərib. Dərmanın tərkibindəki maddələrə asılılığın əmələ gəlməməsi ondan daha geniş istifadə edilməsinə imkan yaradır, preparatın narkotik təsir göstərməsindən sui-istifadənin qarşısını alır.

Opioidlər təbabətdə onların beyin reseptorlarına təsiri sayəsində xroniki ağrıların təcrid edilməsində istifadə olunur. Lakin morfin və buna bənzər maddələr bu zaman beyinin həzz mərkəzini stimullaşdırır ki, bu da bir neçə qəbuldan sonra vərdişə gətirib çıxarır. Statistik göstəricilərə görə, iki milyondan çox insanda məhz keyitmənin bu üsulu nəticəsində asılılıq yaranıb. "AT-121" ağrının aradan qaldırılması zamanı beyinin həzz mərkəzinə heç bir təsir göstərmir və bu, onun əsas üstünlüyüdür ki, preparatı anesteziologiya sahəsində ən perspektivli ixtiraların sırasına çıxarır.



## Konor Makqreqor Həbib Nurməhəmmədovla Rusiyada döyüşmək istəyir

Mütləq Döyüş Çempionatının (UFC) prezidenti Dana Uayt qarışıq döyüş növləri (MMA) üzrə idmançı Konor Makqreqorun planları haqqında danışıb. "Gazeta.ru" xəbər verir ki, irlandiyalı döyüşçü təşkilatın rəhbərinə UFC-nin yüngül çəkidə hazırki çempionu Həbib Nurməhəmmədovla Rusiyada döyüşməyə hazır olduğunu vurğulayıb.

"Konor ən yaxşı boksçularla mübarizə aparmağa hazırdır. O mənə Həbiblə Rusiyada döyüşmək istədiyini bildirib", - deyə UFC-nin rəhbəri qeyd edib.

Bundan əvvəl Makqreqor amerikalı Donald Serroneyə qarşı döyüşməyə də hazır olduğunu bildirmişdi. Donald Serrone Bruklində keçirilən "UFC Fight Night 143" turnirində texniki nokautla rəqibini məğlub etdikdən sonra irlandiyalı MMA döyüşçüsü ilə mübarizə aparmaq istədiyini söyləyib.



## "Beşiktaş" Vaqner Lav ilə yollarını ayırıb

İstanbulun "Beşiktaş" futbol klubu hücumçu Vaqner Lav ilə yollarını ayırıb. "A Bola" saytının yazdığına görə, 34 yaşlı braziliyalı hücumçu "Beşiktaş"da məvacibini ala bilmədiyi üçün müqaviləni ləğv edib. Hücumçunun Braziliyanın "Korintiras" klubuna qayıdacağı və ikiillik müqavilə imzalayacağı bildirilir.

Lav cari mövsümdə İstanbul klubunda keçirdiyi 15 oyunda 7 qol vurub.

## F1 Azərbaycan Qran Prisi üçün jurnalistlərin akkreditasiyası davam edir



Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) 26-28 aprel 2019-cu il tarixlərində dördüncü dəfə keçiriləcək Formula 1 Azərbaycan Qran Prisinə yerli media nümayəndələrinin akkreditasiyası prosesini davam etdirir. BŞH-dən "Səs" qəzetinə verilən məlumata görə, Azərbaycan Qran Prisi daxil olmaqla bütövlükdə 2019 FIA Formula 1 Dünya Çempionatında yer alan hər bir yarış üçün media nümayəndələrinin akkreditasiyası Beynəlxalq Avtomobil Federasiyası (FIA) və Formula One Management (FOM) şirkəti tərəfindən kurasiya olunur.

Yerli media nümayəndələrinin yarışa qeydiyyatı əməliyyat şirkətinin vasitəçiliyi ilə həyata keçirilir. Akkreditasiya prosesi 28 fevral 2019-cu il, saat 17:00-dək davam edəcək. Qeydiyyatdan keçmək istəyən jurnalistlər BŞH-nin rəsmi veb-səhifəsinə daxil olaraq müvafiq formanı doldurmalı və tələb olunan sənədləri sistemə yüklədikdən sonra onlayn qaydada müraciət etməlidirlər. Natamam və ya vaxtından gec göndərilmiş müraciət formaları nəzərə alınmayacaq.

BŞH-nin Marketinq və Kommunikasiya şöbəsinin rəhbəri, Milli Mətbuat Katibi Nigar Arpadarai yerli media nümayəndələrini ölkəmizdə baş tutacaq növbəti Formula 1 yarışını işıqlandırmaq üçün tezliklə yarışa qeydiyyatdan keçməyə dəvət edir: "Diqqətinizə xüsusilə çatdırmaq istərdik ki, Formula 1 yarışlarında iştirak edən media nümayəndələri, bir qayda olaraq, müəyyən rəsmi standartlara və kriteriyalara tabe tutulurlar. Yalnız həmin göstəricilərə tam cavab verən jurnalistlər FIA və FOM-un təsdiqi ilə yarışa buraxılış vəsiqəsi əldə edəcəklər.

Fürsətdən istifadə edərək yarışı işıqlandırmaq istəyən bütün jurnalistləri bu kriteriyalarla yaxından tanış olmağa və gecikmədən 2019 Formula 1 Azərbaycan Qran Prisinə qeydiyyatdan keçməyə çağırırıq. Bu prosesdə hər birinizə uğurlar arzulayırıq!"

Akkreditasiya prosesi ilə əlaqədar əlavə məlumat əldə etmək istəyənlər (+99412) 4041383 nömrəsinə zəng edə və ya accreditation@bakugp.az email ünvanına yaza bilərlər.

***Elgün Vidadioğlu***



## Mourinyo Rusiyaya xokkey matçına baxmağa gəlir

İngiltərənin "Mançester Yunayted" futbol klubunun sabiq baş məşqçisi Joze Mourinyo "Bein Sports" telekanalının efirində Rusiyada xokkey matçına dəvət aldığını və bunu qəbul edəcəyini söyləyib. "News-ru.com"un xəbərinə görə, hazırda 55 yaşlı məşqçi telekanalda mütəxəssis kimi çalışır. Matçın nə vaxt keçiriləcəyi və orada kimin oynayacağı barədə məlumat verilmir. "İlk növbədə, burada üç həftəlik işimdən və əldə edilən təcrübədən razıyam. Mən, həmçinin Rusiyada xokkey matçına dəvət edilmişəm və orada iştirak edəcəyimə görə, xoşbəxtəm", - Mourinyo əlavə edib.

### ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai sinif müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Nağıyeva Günay Asiman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**